Günəş Şərqdən doğur!

❒ № 45 (5326), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 11 mart 2021-ci il (cümə axşamı)

## Amandı, ehtiyatlı olun!



Son dönəmlərdəki intihar hadisələrində təqlid xüsusiyyəti daha çoxdur

(Səh.9)

**Günün içindən...**



### 4 min müəllimə və 2 min məktəb rəhbərinə təlimlər keçirilib

Emin Əmrullayev: "Şagirdlərə qarşı zorakılıq əleyhinə profilaktik mexanizmlər tətbiq olunacaq"

"Şagirdlərin akademik nailiyyətləri ilə yanaşı onların psixoloji sağlamlığı, təhlükəsizliyi və rifahı da vacib məsələdir.

(səh.2)

### Bakıda yanan gəmi söndürülüb



Hadisə zamanı xəsarət alan olmayıb

(səh.4)

# Artıq Qafqazda sülh mümkündür



Çavuşoğlu: "Türkiyənin qapısı əməkdaşlıq üçün Ermənistan da daxil hamıya açıqdır"

(səh.4)

## DYP: Lüzumsuz siqnal verən sürücülər cərimələnəcək




(səh.3)

✓ **Əfv Komissiyası daha 100-dən artıq müraciətə baxıb**

Növbəti iclasın martın 13-də keçirilməsi nəzərdə tutulur

(səh.3)

✓ **ATƏT sədri Azərbaycan və Ermənistana səfər edəcək**

(səh.2)

✓ **Möhtəkirlər meydana girmək istəyirlər**

"Qara bazarda" peyvənd də var, saxta peyvənd sertifikatı da...

(səh.7)

✓ **Bir gündə 515 yeni yoluxma faktı qeydə alınıb**

Azərbaycanda son sutkada koronavirusdan 7 nəfər vəfat edib

(səh.9)

# “Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır”

## Prezident İlham Əliyev: “Əminəm ki, Macarıstan şirkətlərinin də azad edilmiş ərazilərdə bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq”



Dünən Prezident İlham Əliyev Macarıstanın Xarici işlər və ticarət naziri Peter Siyartonu videoformatda qəbul edib. Dövlət başçısı bildirib ki, strateji tərəfdaş olan Azərbaycan və Macarıstan müxtəlif sahələrdə fəal əməkdaşlığı davam etdirməlidir. Ölkə rəhbəri Avropa Komissiyası ilə əlaqələrdə rəsmi Bakıya dəstək olan Macarıstana minnətdarlıq edib:

“Bildiyiniz kimi, biz Avropa İttifaqı ilə sazişin müzakirəsinin yekun mərhələsindəyik. Pandemiya və müharibə səbəbindən bu müzakirələr müvəqqəti dayandırılıb. Lakin sazişin müddəalarının mütləq əksəriyyəti artıq razılaşdırılıb. Əminəm ki, qarşıdan gələn aylar ərzində daha böyük irəliləyiş olacaq. Əlbəttə, ikitərəfli gündəliyimiz çox vacibdir”.

**“Azərbaycan və Macarıstan iqtisadi sahədə fəal əməkdaşlıq etməlidir”**

**Dövlət başçısı qeyd edib ki, dost ölkələr olan Azərbaycan və Macarıstan iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığı fəallaşdırmalıdır:** ”Xüsusilə də, işğal altında olan ərazilərimizin azad edilməsindən sonra orada yenidənqurma sahəsində çoxlu imkanlar mövcuddur. Həmin ərazilər tamamilə viran qoyulub və yəqin ki, siz də həmin videomateriallarla tanışsınız. Oralar darmadağın edilib və biz həmin əraziləri sıfırdan yenidən qurmalıyıq. Söhbət Azərbaycanın böyük bir hissəsi - 10 min kvadratkilometrdən artıq ərazidən gedir və biz bu işi tərəfdaşlarımızla əməkdaşlıq şəraitində icra etmək istəyirik”.

**“Azad edilmiş ərazilərdə görüləcək işlərin həcmi böyükdür”**

**Prezident vurğulayıb ki, Azərbaycan ancaq dost ölkələrdən olan şirkətləri Qarabağda əməkdaşlığa dəvət edəcək:** ”Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır. Əminəm ki, Macarıstan şirkətlərinin də azad edilmiş ərazilərdə bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq. Digər sahələrdə də imkanlar mövcuddur. Bilirəm ki, kənd təsərrüfatı və texnologiya sahələrində böyük potensial var. Biz azad olunmuş ərazilərdə müasir infrastruktur və şəhərsalma layihələrinin icrasını planlaşdırırıq. Görüləcək işlərin həcmi böyükdür”.

**“Hər zaman demişik ki, Azərbaycanın suverenliyi bərpa olunmalıdır”**

**Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto isə öz növbəsində bildirib ki, Azərbaycanın suverenliyi bərpa olunmalıdır:** ”Bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi bərpa olunmalıdır. Son bir neçə onillik ərzində Azərbaycanın bu hüququ pozulmuşdu və biz bununla bağlı mövqeyimizi gizlətməyən ölkələrdən olmuşuq. Bu məsələ ilə bağlı mövqeyimizi aydın ifadə etməkdə davam edəcəyik. Cənab Prezident, əmin ola bilərsiniz ki, bu baxımdan hər zaman balanslı yanaşma nümayiş etdirəcək, həqiqəti söyləyəcək və mövqeyimizi açıq ifadə edəcəyik”.

**İsmayıl**



## Prezident Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı bölgədə yaranmış yeni geosiyasi vəziyyət, postmüharibə şəraiti, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərinin aparılması, regional nəqliyyat layihələrinin həyata keçirilməsi məsələləri müzakirə olundu.

## ATƏT sədri Azərbaycan və Ermənistana səfər edəcək



**İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde Azərbaycan və Ermənistana səfər etmək niyyətindədir.**

Bu barədə xanım Linde özünün ”Twitter” səhifəsində yazıb.

A.Linde ATƏT-in Minsk Qrupu həmsədrləri və ATƏT-in Minsk Qrupunun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiklə Azərbaycan və Ermənistana gözlənilən səfəri ilə bağlı görüş keçirib.



## Baş nazir Qarabağın icra başçılarını topladı

### Ermənistanın Azərbaycana vurduğu ziyanın qiymətləndirilməsi üzrə Komissiyanın növbəti iclası keçirilib

**Dünən Baş nazir Əli Əsədovun sədrliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə yaradılmış Dövlət Komissiyasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetindən “Şərq”ə verilən məlumata görə, iclasda Komissiyanın üzvləri və dəvət edilmiş şəxslər - təcavüzə məruz qalmış şəhər və rayonların icra hakimiyyəti başçıları və digər rəhbər şəxslər iştirak ediblər.

İclas zamanı dəymiş ziyanın qiymətləndirilməsi, ilkin yardımın göstərilməsi, qismən ziyan dəymiş və tam dağılmış tikililərin bərpası və təmiri ilə əlaqədar son vəziyyətə dair məruzələr dinlənilib.

Vətəndaşlar tərəfindən edilən əlavə müraciətlərə baxılması, qiymətləndirmə prosesində şəffaflığın təmin edilməsi, təmir və bərpa işləri ilə

# 4 min müəllimə və 2 min məktəb rəhbərinə təlimlər keçirilib

## Emin Əmrullayev: “Şagirdlərə qarşı zorakılıq əleyhinə profilaktik mexanizmlər tətbiq olunacaq”



"Şagirdlərin akademik nailiyyətləri ilə yanaşı onların psixoloji sağlamlığı, təhlükəsizliyi və rifahı da vacib məsələdir. Ailədaxili münasibətlər, müəllimlərin, məktəb psixoloqlarının və məktəb rəhbərlərinin şagirdlərlə qurduğu ünsiyyət, məktəbdə öyrənmə mühitinin zənginliyi, öyrənənlərin dərsdənkənar məşğələlərə və könüllülük fəaliyyətinə cəlb edilməsi kimi hallarla yanaşı, şagirdlərarası münasibətlərin düzgün qurulmasını da mühüm hesab edirəm".

Bu fikirləri Təhsil naziri Emin Əmrullayev özünün feysbukdakı səhifəsində yazıb.

”Məktəbdaxili qısnama (bullinq) halları ilə mübarizə, ənənəvi və sosial mediada yeniyetmələrlə bağlı həssas məqamların düzgün əks etdirilməsi və digər faktorların həyatımıza yaxından təsir etdiyinin şahidi oluruq. Bu baxımdan bullinq və şagirdlərə qarşı zorakılıq hallarının müəyyən edilməsi, qeydiyyatın aparılması, hər bir halın araşdırılması və zəruri tədbirlərin görülməsinə dair profilaktika mexanizmləri də hazırlanmışdır və yaxın gələcəkdə məktəblərdə tətbiq ediləcəkdir. Antibullinqlə mübarizəyə dair 4 000 müəllimə və 2 000 nəfər məktəb rəhbərinə təlimlər keçirilmişdir”.

”Eyni zamanda, ötən il ”Təhsil müəssisələrində psixoloji xidmətin təşkili” qaydalarının təsdiq edilməsi, 226 məktəbdə 400 000-ə qədər şagirdi əhatə edən ”Məktəblinin Dostu” layihəsi, müəllimlər üçün məktəb psixologiyası sahəsində ixtisasartırma təlimlərinin keçirilməsi, uşaq psixologiyası üzrə 800 nəfər psixoloq üçün təlimlərin keçirilməsi və hazırda da UNİCEF-in dəstəyi ilə davam edən 300 nəfər psixoloq üçün cəbhəyanı bölgələrdə təlimlərin təşkili Təhsil Nazirliyi tərəfindən həyata keçirilmiş tədbirlərə nümunədir. Məsələnin bir şəxsdən və ya qurumdan deyil, daha çox müxtəlif tərəflər arasında qurulan əməkdaşlıqdan asılı olduğuna inanır, məktəb, valideyn və geniş ictimaiyyətin bu məsələlərin həllində xüsusi rolu olduğunu qeyd etmək istəyirəm. Hər bir şagirdimizin psixoloji rifahı, sağlamlığı və təhlükəsizliyi Təhsil Nazirliyi üçün prioritetdir”, - deyə nazir qeyd edib.



# Paşinyan ordusuna da qalib gəldi

## Baş nazir xalqın dəstəyini itirməsə onu nə “Qarabağ klanı”, nə hərbi qanad, nə də Kreml devirə biləcək

Ermənistan ordusunun Baş Qərargah rəisi Onik Qasparyan qanunun gücü ilə vəzifəsindən azad edilib. Prezident Armen Sarkisyan Paşinyanın Qasparyanın istefası ilə bağlı müraciətini Konstitusiya Məhkəməsinə göndərməkdən imtina edib. Bunun sayəsində ötən gün 18:00-dan etibarən Qasparyan vəzifəsindən avtomatik azad edilmiş sayılıb.

Bununla belə, Qasparyan hələ də ofisini tərk etməyib. Armen Sarkisyan isə ”Hərbi qulluqçuların statusu haqqında” qanuna edilən dəyişikliklərin Konstitusiyaya uyğunlaşdırılması məqsədilə Konstitusiya Məhkəməsinə müraciət edib. Dəyişikliyə əsasən, baş nazir orduda istənilən şəxsi prezidentin təsdiqləməsinə ehtiyac olmadan vəzifəsindən uzaqlaşdıra biləcək. Bu, Qasparyanla birlikdə baş nazirin istefa tələbinə qoşulan 40-a yaxın yüksəkrütbəli zabitin də ordudan uzaqlaşdırılmasına hazırlıq getdiyini deməyə əsas verir. Paşinyan qiyamçılara yaxın dövrdə toxunmasa belə, tezliklə onları cəzalandıracaq. Hazırda Ermənistan ordusu Qasparyanın komandası ilə Nikolun komandası arasında ikiyə parçalanıb.

**Baş Qərargah rəisi Paşinyana uduzduğunu etiraf etdi**

Ermənistan ordusunun eks-Baş Qərargah rəisi Onik Qasparyan orduya müraciət edib. O, istefaya göndərilməsi ilə bağlı məhkəməyə müraciət edəcəyini bildirib: ”Mən xalqıma xidməti başqa statusda icra edəcəm. Amma baş nazirin qərarı Konstitusiyaya zidd olduğu üçün məhkəməyə müraciət edəcəm. Bu böhran yalnız Paşinyanın istefası və növbədənkənar seçkilərin keçirilməsi ilə həll oluna bilər”.

**Paşinyan Qasparyanın yerinə namizəd tapıb**

Ermənistan Baş naziri Nikol Paşinyan Qasparyanın boşaltdığı posta sabiq Baş Qərargah rəisi Artak Davtyanı təyin etmək istəyir. Çünki Davtyan Paşinyanın istefasını tələb etməyən azsaylı generallardan biridir. O, pandemiyanın geniş yayılmış vaxtında oğluna təntənəli toy mərasimi keçirdiyi üçün vəzifəsindən azad edilmişdi. Qeyd edək ki, Ermənistanın Müdafiə naziri Vaqarşak Arutyunyan ötən gün Artak Davtyanı Baş Qərargahın xüsusi tapşırıqlar üzrə baş zabiti vəzifəsinə təyin edib.



**Sarkisyan Paşinyanın təqdimatını rədd edib**

Ermənistan Prezidenti Armen Sarkisyan Baş nazir Nikol Paşinyanın Artak Davtyanın Baş Qərargah rəisi təyin edilməsi haqqında təqdimatını imzalamaqdan imtina edib. ”Times.am” saytının məlumatına görə, Sarkisyanın belə addımına səbəb situasiyanın nəzarətdən çıxmasına imkan verməmək olub. Hökumətin hazırda Baş Qərargahla Qasparyanın yerinə müvəqqəti təyinat üçün danışıqlar apardığı bildirilib.

**Ermənistan ordusu Paşinyana tabe olmaq istəmir...**

Ermənistan ordusunun Baş Qərargahı Nikol Paşinyanın istefası tələbini yenidən təkrarlayıb. Ordu rəhbərliyi eks-Baş Qərargah rəisi Onik Qasparyanın müraciətində səslənən fikirlərə qoşulduğunu vurğulayıb: ”Ermənistan ordusunun rəhbərliyi general-polkovnik Onik Qasparyanın müraciətinə qoşulur və onun respublikadakı situasiyaya verdiyi qiyməti təsdiqləyir. Bu situasiyanın həlli birdir və müraciətdə göstərilib. Baş Qərargah rəisi, general-polkovnik Onik Qasparyanın 10 martda səslənən müraciətindəki fikirləri silahlı qüvvələr üzərinə bir tapşırıq kimi götürür”. Ermənistan ordusu Qasparyanı eks deyil, hazırkı Baş Qərargah rəisi adlandırmaqla Paşinyana tabe olmaqdan imtina etdiyini göstərib.

**Moskva Ermənistandakı siyasi gərginliyi şərh etdi**

Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bildirib ki, Ermənistandakı situasiya bu ölkənin daxili işidir: ”Rusiya bu ölkədə vəziyyətin normallaşmasında maraqlıdır. Biz orda gedən proseslərə qarışmırıq və heç kimin tərəfini tutmuruq”.

**“Qasparyanın gedişi ”Qarabağ klanı”na da ciddi mənfi təsir göstərəcək”**

**Ermənistandakı vəziyyəti ”Şərq”ə təhlil edən politoloq Turan Rzayev deyib ki, Onik Qasparyanın istefaya göndəriləcəyi gözlənilən idi.** Siyasi şərhçi bildirib ki, Baş nazir Nikol Paşinyan Silahlı Qüvvələrin Baş Qərargah rəisinin onun ən böyük təhlükə olduğunun fərqində idi: ”Hər an orduda hökumətə qarşı hərbi çevriliş ola bilərdi. Qasparyanın geri dönüş imkanları azdır. Bundan öncə sadəcə Baş nazir Paşinyan onu istefaya göndərirdi, ancaq eks Baş Qərargah rəisi ölkə konstitusiyasına görə vəzifəsindən uzaqlaşdırıldı. Belə şəraitdə baş nazirə etiraz əsassızdır. Qasparyanın vəzifədən getməsi ”Qarabağ klanı”na da ciddi mənfi təsir göstərəcək. Bu istefa Koçaryan-Sarkisyan üçün ciddi itki sayıla bilər. General Kreml üçün də vacib kadr idi. Moskva Qasparyan üzərindən ölkədə rahatlıqla hərbi çevrilişə cəhd edə bilərdi. Paşinyan təbii olaraq özünə sadiq hərbçinin Baş Qərargah rəisi olmasını istəyir”.

*Analitikin sözlərinə görə, baş nazirin boşalan posta öz namizədini yerləşdirməsindən sonra hökumətə qarşı etirazlar sadəcə siyasi müstəvidə cərəyan edəcək:* ”Müxalifət Rusiyanın dəstəyi olmadan heç nəyə nail olmaq iqtidarında deyil. Moskva Paşinyanın arxasındakı dəstəyi gördüyü üçün təmkinli davranır. Reallıq odur ki, Paşinyan ermənilər arasında dəstəyini itirməzsə, ciddi səhvlər nəticəsində xalqın qəzəbinə tuş gəlməzsə, onu nə ”Qarabağ klanı”, nə hərbi qanad, nə də Kreml devirə biləcək. İnqilabla hakimiyyətə gəlmiş şəxslərin siyasətdən gedişi o qədər də asan proses deyil. Paşinyan təhlükəli bildiyi şəxsləri özünə sadiq kadrlarla əvəzləməklə öz ətrafını daha da gücləndirir. Bütün bunlar baş nazirin hakimiyyətdə qalacağına işarədir”.

**İsmayıl Qocayev**

## Əfv Komissiyası daha 100-dən artıq müraciətə baxıb

### Növbəti iclasın martın 13-də keçirilməsi nəzərdə tutulur

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən artıq yeni müraciətə baxılıb.

Qeyd edək ki, yeni müraciətlərə baxmaq üçün komissiyanın 8 iclası keçirilib və daxil olan müraciətlərin 850-dən çoxuna baxılıb.

İclaslarda əsasən yol nəqliyyat hadisəsi törətmiş şəxslərin, əcnəbilərin və hərbi qulluqçuların müraciətlərinə baxılıb.

Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclasının tarixi də məlum olub. Növbəti iclasın martın 13-də keçirilməsi nəzərdə tutulur.

## DYP: Lüzumsuz siqnal verən sürücülər cərimələnəcək

**Bakı şəhər Dövlət Yol Polisi İdarəsi sürücülərə xəbərdarlıq edib.**

İdarədən APA-ya verilən məlumata görə, son zamanlar paytaxt küçələrində intensiv hərəkət müşahidə olunur: ”Günün pik saatlarında şəhərin mərkəzi küçə və prospektlərində yaranan sıxlıq zamanı sürücülər lüzumsuz olaraq səs siqnallarından istifadə edirlər. Qeyd olunan hal ilk öncə paytaxt sakinlərinin narahatçılığına və haqlı narazılığına səbəb olur. Sürücülərimiz onu bilməlidir ki, ”Yol Hərəkəti Haqqında Qanun”un tələbləri çərçivəsində səs siqnalları yaşayış məntəqələrində yalnız yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə istifadə oluna bilər. Əks təqdirdə bu hal inzibati xəta tərkibi yaradır və sürücülər İnzibati Xətalar Məcəlləsinin 329.3-cü maddəsinə əsasən cərimə oluna bilərlər. Bir daha sürücülərdən xahiş edirik ki, paytaxt sakinlərinin, həmçinin yollarda hərəkətdə olan digər şəxslərin hüquqlarının pozulmaması və inzibati məsuliyyətə cəlb olunmamaları üçün bu növ qayda pozuntusu törətməkdən çəkinsinlər”.

## Çavuşoğlu və Lavrov Qarabağı müzakirə etdilər



**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Qətərin paytaxtı Dohada rusiyalı həmkarı Sergey Lavrovla görüşüb.**

Bu barədə Türkiyənin Xarici işlər naziri özünün tvitterdəki səhifəsində bildirib.

Mövlud Çavuşoğlu qeyd edib ki, o, rusiyalı həmkarı ilə ikitərəfli əlaqələri, habelə Dağlıq Qarabağ, Liviyada və Suriyada yaranmış vəziyyəti müzakirə edib.

”Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla Türkiyə və Rusiya arasında münasibətləri, Dağlıq Qarabağda, Liviyada və Suriyada son hadisələri müzakirə etdik”, - deyə Mövlud Çavuşoğlu tvitterdəki səhifəsində yazıb.

Türkiyə xarici siyasət idarəsinin başçısı bildirib ki, rəsmi Ankara turizm sahəsində pandemiyadan əvvəlki göstəricilərə nail olmağa hədəf seçib. (”Report”)

Çavuşoğlu həmçinin xatırladıb ki, çərşənbə günü Türkiyənin Mersin əyalətində ”Akkuyu” atom elektrostansiyasının enerji blokunun təməlqoyma mərasimi olub. ”Qoy o, ləyaqətlə xalqımıza xidmət etsin”, - nazir əlavə edib.

# Macarıstan Azərbaycana dost ölkədir

**Asim Mollazadə:** *"Macarıstanın da ölkəmizin enerji sistemindən bəhrələnməsinə müsbət yanaşıram"*



Ötən gün Prezident İlham Əliyev Macarıstanın Xarici işlər və ticarət naziri Peter Siyartonu videoformatda qəbul edib. Görüş zamanı bir sıra məsələlər müzakirə olunub. Macarıstanlı nazir bildirib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi bərpa olunmalıdır.

Nazir vurğulayıb ki, son bir neçə onillik ərzində Azərbaycanın bu hüququ pozulmuşdu və biz bununla bağlı mövqeyini gizlətməyən ölkələrdən olmuşuq: "Biz bu məsələ ilə bağlı mövqeyimizi aydın ifadə etməkdə davam edəcəyik. Cənab Prezident, əmin ola bilərsiniz ki, biz bu baxımdan hər zaman balanslı yanaşma nümayiş etdirəcək, həqiqəti söyləyəcək və mövqeyimizi açıq ifadə edəcəyik".

*P.Siyarto qeyd edib ki, Macarıstan bu ilin sonunda Cənub Qaz Dəhlizinə qoşulacaq*: "Macarıstan qaz boru xətləri Serbiya qaz kəmərləri ilə birləşəcək. Macarıstanın Cənub Qaz Dəhlizindən qaz alması vacibdir.

Azərbaycan qaz istehsalını artıra da bilər. Bunun nəticəsində biz əhəmiyyətli miqdarda qaz ala bilərik. Hətta SOCAR-la danışıqlar da başlanıb ki, lazımi kəmərlər tikilsin".

**Məlum görüşü "Şərq"ə şərh edən millət vəkili Asim Mollazadə bildirib ki, Azərbaycanla-Macarıstan strateji tərəfdaş və dost ölkələrdir.** Onun sözlərinə görə, Macarıstanla çoxşaxəli əməkdaşlığımız var: "Xatırlatmaq istəyirəm ki, Macarıstan Türk Şurasına üzv olan ölkədir. Əlavə olaraq bu istiqamətdə də mədəni və ortaq köklərimiz var. Ona görə də son vaxtlar Macarıstanla əməkdaşlıq sürətlə inkişaf edir.

Həm iqtisadi, həm də siyasi nöqteyinəzərdən əlaqələrimiz mövcuddur.

Əminəm ki, bu əlaqələrin daha da inkişafı üçün bir-birimizi bütün beynəlxalq platformalarda dəstəkləyirik.

Avropa Birliyinin üzvü olan Macarıstan Azərbaycana hər zaman AB-də və digər beynəlxalq təşkilatlarda dəstək verib.

İqtisadi baxımdan Macarıstanın da ölkəmizin enerji sistemindən bəhrələnməsinə müsbət yanaşıram. Düşünürəm ki, bu istiqamətdə bütün zəruri işlər zamanında görüləcək".

**Yeganə Bayramova**



## Bakıda yanan gəmi söndürülüb

Hadisə zamanı xəsarət alan olmayıb

**10 mart 2021-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsində yanalma körpüsündə doğranmaqda olan gəmidə yanğın baş verməsi barədə məlumat daxil olub.**

FHN-dən "Şərq"ə verilən məlumata görə, dərhal Nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq texnika və canlı qüvvəsi hadisə yerinə cəlb olunub. Gəminin daxili bölmələrinin mürəkkəb və yanar konstruksiyalara malik olması və nəticədə meydana çıxan qapalı qatı tüstünün söndürmə işlərinə mane olmasına baxmayaraq, yanğınsöndürənlərin operativ müdaxiləsi sayəsində yanğın geniş sahəyə yayılmasının qarşısı alınaraq söndürülüb. Yanğın zamanı xəsarət alan olmayıb.



## Ərdoğan və Putin yaxın vaxtlarda görüşəcəklər

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin yaxın vaxtlarda görüşəcəklər.**

APA-nın xəbərinə görə, bu barədə Türkiyə və Rusiya dövlət başçıları Mersin vilayətində "Akkuyu" Atom Elektrik Stansiyasının (AES) 3-cü blokunun təməlqoyma mərasimi zamanı görüşü razılaşdırıblar.

V. Putin uzun müddətdir türkiyəli həmkarı ilə görüşmədiyini vurğulayıb. O, əlavə edib ki, görüşü yaxın vaxtlarda reallaşdırmaq lazımdır.

## Artıq Qafqazda sülh mümkündür

Çavuşoğlu: "Türkiyənin qapısı əməkdaşlıq üçün Ermənistan da daxil hamıya açıqdır"



**"Artıq regionumuzun taleyinin dəyişməsi, Qafqazda davamlı sülh və sabitliyin təmin olunması mümkündür".**

APA-nın xəbərinə görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Qırğızıstan-Türkiyə Manas Universitetində çıxışı zamanı deyib.

"Əlimizə fürsət düşüb. Ümid edirəm ki, bu fürsəti hər kəs görər, bu həyəcanı bütün tərəflər bölüşər", - Türkiyə XİN başçısı vurğulayıb.

M. Çavuşoğlu qeyd edib ki, Türkiyənin qapısı əməkdaşlıq üçün Ermənistan da daxil olmaqla hamıya açıqdır.

# Yox olsun monopoliya, yaşasın iqtisadi azadlıqlar

## Novruz bayramı ərəfəsində bazarlar od tutub "yanır"

Artıq Yel çərşənbəsini də yola saldıq. Sonuncu çərşənbə və Novruz bayramına sayılı günlər qalıb. Dolayısı ilə bayram bazarlığının vaxtı da yetişib. Hər il Novruz bayramı ərəfəsində ölkədə bəzi qida məhsullarının, çərəzlərin qiymətində bahalaşma olur.

Builki qiymət artımı Parlamentdə də müzakirə mövzusu olub. Millət vəkili Əli Məsimli Parlamentin dünənki iclasında bildirib ki, istəyirəm Azərbaycan əhalisinin bütün təbəqələri bayram süfrəsi aça bilsin.



**"Nə qədər ki, rəqabət mühiti formalaşdırılmayacaq, qiymətlərdən şikayətçi olacağıq"**

Deputat bildirib ki, bütün dünyada bayramlar zamanı qiymətlər düşür: "Bizdə isə əksinədir. Dünyada qiymətləri aşağı salanlar itirmirlər, əksinə, qazanırlar. Ona görə də Azərbaycanda da buna son qoymaq lazımdır. Dünya təcrübəsini artıq biz də tətbiq etməliyik. İqtisadi azadlıqları genişləndirməklə ölkədə məhsul bolluğu yaratmalıyıq. Ən əsası monopoliyaya son qoyulmalı, bəzi işbazların fəaliyyətinin qarşısı alınmalıdır. Novruz bayramı ərəfəsində qiymətlərin yenidən artırılmasının qarşısı alınmalıdır".

**Mövcud durumla bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, bütün vətəndaşların normal bayram süfrəsi açması üçün bu istiqamətdə hökumət real addımlar atmalıdır:** "Adətən Azərbaycanda deputat və müxtəlif məmurlar, həmçinin ictimaiyyətin digər nümayəndələri ölkə başçısı hansısa məsələyə toxunduqdan sonra az qala növbəyə durub fikir səsləndirirlər. Son günlər Prezident monopoliyanın zərərli olması barədə danışdıqdan sonra bu tipli mesajlar çoxalır. Təəssüf ki, insanlar ancaq nəticə haqqında danışırlar, səbəb göstərilmir.

Səbəb isə çox sadədir: Azərbaycan iqtisadiyyatı demək olar ki, monopoliyadadır. Məmur sahibkarlığının yaratdığı monopoliyadır. Nə qədər ki, bu səbəb aradan qaldırılmayıb, rəqabət mühiti formalaşdırılmayacaq, qiymətlərdən şikayətçi olacağıq. Ona görə də bəziləri "monopoliya zərərlidir" dedikdə elə düşünürlər ki, ortabab monopolistlər sıradan çıxarılmalı və böyük monopolistlər qalmalıdır. Əslində belə fikirlər təbliğ olunur və müxtəlif deputatların çıxışlarında bu yanaşma daha çox yer alır.

Amma bazar tələb-təklif üzərində qurulmalıdır. Əslində heç bir sahibkar süni qiymət artımı yaratmır. Bazar iqtisadiyyatında süni qiymət artımı anlayışı yoxdur. Lakin ölkəmizdə belə qiymət artımı olur, bu bahalaşma dövlət orqanlarının yaratdığı durumdur.

Necə ki, dövlət şirkətləri kommunal taarifləri müəyyən edərkən illər boyu zərərlə işləyirlər və çoxmilyardlıq vəsaitini ildən-ilə investisiyalı layihələr kimi həyata keçirirlər. Onlar maya dəyərini şişirdirlər, nəticədə vətəndaşlar daha çox vəsait ödəməli olurlar. Necə ki, ilin əvvəlində dizel yanacağının, sonra da su taarifinin qiymətinin artımı oldu.

Azərbaycan idxaldan asılı ölkədir. Gömrük Komitəsi ölkəyə gələn məhsulların əksəriyyətinə demək olar ki, bütövlükdə süni qiymət artımı tətbiq edir. Yəni bəyannamə qiymətlərini şişirdirlər və sahibkarın gətirdiyi qiymətləri qəbul etmirlər.

Beləliklə, məhsullarda bahalaşma meydana gəlir. Bu da bütün vətəndaşlara təsir göstərir".

**İqtisadçı bahalaşmanın qarşını almaq üçün alternativ çıxış yollarını da sadalayıb:** "Hökumət dövlət idarəçiliyindəki xərcləri azaltmalı, mobil hökumətə keçməlidir. Bir-birini təkrar edən və yaxud eyni funksiyaları daşıyan qurumlar ləğv olunmalıdır. Dövlət qurumları sahibkarlıq fəaliyyəti ilə məşğul olmamalıdırlar.

Sahibkarlıq subyektlərinin azad fəaliyyət göstərməsi üçün onların əli-qolu açılmalıdır. Eyni zamanda lisenziya və icazələrin alınması asanlaşdırılmalıdır. Bu istiqamətdə addımlar atılır, ancaq yetərli deyil. Bir sözlə, məmur sahibkarlığı ləğv olunmalıdır. Məmurlar gəlir və əmlak deklarasiyasını verməlidirlər.

Media azadlığı təmin edilməli, məhkəmə müstəqil olmalıdır. Belə işlər kompleks şəkildə həyata keçirilmədikdə hər kəs ölkədə qiymət artımından şikayətlənəcək. Bu səbəblər aradan qalxmayınca problemlər həllini tapan deyil".

**Yeganə Bayramova**

# Şəffaf və ədalətli cəmiyyət istəyirik



## Məmurlar dərs çıxarmır, həbs dalğası davam edəcək

**Prezident İlham Əliyev məmur özbaşınalığının aradan qaldırılması, qanunsuz əməllərə yol verən vəzifə sahiblərinin cəzalanması istiqamətində mühüm tədbirlər görür. Bu baxımdan korrupsiyaya yol verən, dövlət vəsaitini talayan hər bir məmurun həbsi qaçılmazdır.**

Təsadüfi deyil ki, ölkə başçısı çıxışlarında bütün vəzifə sahiblərinin xalqa layiqli xidmət etməli olduğunu xüsusilə vurğulayır. Lakin qanunsuz əməllərə yol verən məmurlara yenə də rast gəlirik.

Daha 2 vəzifə sahibinin həbsi, 1 nəfər barəsində isə cinayət işinin açılması həbs dalğasının davam edəcəyindən xəbər verir. Naxçıvanın sabiq Daxili işlər naziri ilə təhsil naziri həbs olundu. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Ağcabədi rayon filialında müavinət sektorunun baş məsləhətçisinə isə korrupsiyaya yol verdiyi üçün cinayət işi açıldı.

Maraqlıdır ki, məmur həbsləri və digər cəza mexanizmləri davam etsə də bu durumdan dərs çıxaran yoxdur. Təəssüf ki, işdən azad edilən vəzifəli şəxslərin yerinə gələnlər də 3-5 ay sonra eyni əməllərə yol verirlər.

**Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Şərq"ə bildirib ki, Prezidentin başçılığı ilə dövlət səviyyəsində korrupsiyaya qarşı mübarizə tədbirləri davam edir.**

Onun sözlərinə görə, bu tədbirlər sayəsində hansısa məmur həbs olunur və ona qarşı müxtəlif ittihamlar irəli sürülür: "İnanıram ki, hüquq-mühafizə orqanları tərəfindən obyektiv və ədalətli araşdırmalar aparılır. Düşünürəm ki, cəmiyyətdə korrupsiya halları olduqca həbslər baş versə də, məmur özbaşınalığı davam edir. Onlar yenə də vəzifə səlahiyyətlərindən sui-istifadə edirlər. Nə qədər ki, belə hallar yaşanacaq, hüquq-mühafizə orqanları bu qanunsuzluqlara göz yummayacaq, o zamana qədər belə neqativ hallarla rastlaşacağıq. Ona görə də ilk növbədə məmurlar nəticə çıxarmalıdırlar. Onlar vəzifə səlahiyyətlərindən istifadə etməməli, rüvşətxorluq və korrupsiyaya yol verməməlidirlər. Çünki ölkə başçısı da dəfələrlə bildirib ki, bu proseslərin geriyə yolu yoxdur. Hər birimiz açıq hökumətin tərəfdarıyıq. MQF rəhbəri olaraq şəffaf və ədalətli cəmiyyətin qurulmasını istəyirik. Bu istiqamətdə irəliləməliyik. O cəmiyyətdə ki, şəffaflıq və ədalət hökm sürür, vətəndaşların hüquqları yüksək səviyyədə qorunur, bu zaman insanlar üçün heç bir təhlükə olmayacaq".

**Yeganə Bayramova**



## Ənənəvi tədris davam etdirilir

### Məktəblərdə koronavirusla bağlı son vəziyyət açıqlanıb

**Təhsil Nazirliyi məktəblərdə COVID-19-la bağlı vəziyyətə dair məlumat yayıb. Məlumatda bildirilib ki, 22 fevral - 10 mart tarixlərində ölkə ərazisində 4 416 məktəb, 89 223 sinifdə qismən ənənəvi tədris təşkil edilib.**

Həmin müddətdə distant təhsilə keçirilən siniflərin sayı 302 (ümumi siniflərin 0.34 faizi), distant təhsilə keçirilən məktəblərin sayı 13-dür (ümumi məktəblərin 0.29 faizi). Gigiyena və Epidemiologiya mərkəzlərinin qərarına əsasən, distant təhsilə keçirilmiş təhsil müəssisələri Respublika İncəsənət Gimnaziyası, Ağdam rayonu 19 nömrəli və Əfətli kənd, Gəncə şəhəri 37 nömrəli və V.Əliyev adına 12 nömrəli, Mingəçevir şəhər N.Nərimanov adına 1 nömrəli, Qaradağ rayonu Müşfiqabad qəsəbəsi 274 və 320 nömrəli, Şəki rayon Baş Zəyzid kənd və 9 nömrəli, Kəlbəcər rayon 1 nömrəli, Qazax rayonu İ. Şıxlı adına Kosalar kənd və Şəmkir rayon Dəllər-Cəyir kənd tam orta məktəbləridir.

Daha öncə distant təhsilə keçirilən Bakı şəhəri 82 nömrəli və Qaradağ rayonu Lökbatan qəsəbəsi 106 nömrəli tam orta məktəblərində tədris ənənəvi formada davam etdirilir. Qeyd edək ki, fevralın 1-dən ölkə üzrə ümumi təhsil müəssisələrində ənənəvi tədris qismən davam etdirilir.

# İslahatların vacib nöqtəsi...

## Güclü, oturuşmuş bələdiyyə sistemi yaradılmalıdır

*Azərbaycanda bələdiyyələrin statusunun qeyri-müəyyənliyi illərdir müzakirə olunan mühüm məsələlərdən biridir. "Bələdiyyələrin statusu haqqında" qanuna görə, yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkili sistemidir. Bu sistem bələdiyyələrə qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil, sərbəst şəkildə həll etmək hüququ versə də, bələdiyyələr asılılıqdan xilas ola bilmir.*

Bələdiyyələrin statusunun dəyişdirilməsi və səlahiyyətlərinin artırılması Milli Məclisin sonuncu plenar iclasında da müzakirə edilib. Parlament üzvü Qüdrət Həsənquliyev bildirib ki, bələdiyyələrlə bağlı islahatlar dərinləşdirilməlidir. Deputatın sözlərinə görə, bələdiyyələr rayon icra hakimiyyətinin hansısa şöbəsinin bir bölməsi kimi fəaliyyət göstərir: "Bələdiyyələrə yerli dövlət orqanı statusu verilməli, icra hakimiyyəti orqanları isə ləğv olunmalıdır. Bundan başqa, Bakı və Gəncə şəhər bələdiyyələri yaradılmalıdır. Şəhərin problemləri ilə insanların seçdiyi insanlar məşğul olmalıdır. Bələdiyyələrə seçkilər professional seçki sistemi əsasında keçirilməlidir". Deputat Jalə Əhmədova da vurğulayıb ki, Azərbaycanda Türkiyə bələdiyyələrinin təcrübəsindən yararlanmaq və türk modelini tətbiq etmək lazımdır. Deputatın qənaətincə, Azərbaycan telekanallarında bələdiyyələrin fəaliyyətini əhatə edən verilişlər hazırlamağın da vaxtı çatıb. Millət vəkili Razi Nurullayev də vurğulayıb ki, bələdiyyələrin iş görmək, pul qazanmaq, problemləri həll etmək üçün resursları yoxdur: "Torpaqları qəpik-quruşa icarəyə verib başlarını atıb yatırlar. Özləri öz resurslarını kapitala çevirməyi öyrənsinlər, biz də onlara kömək edək. Kənd yerlərində mal-qara var, kiçik sexlərdə süd məhsulları, yem istehsalı mümkündür. Bitkiçiliklə, əkinçiliklə, arıçılıqla, meyvəçiliklə, gülçüluklə də məşğul ola bilərlər. Öyrədək, deməyək get elə, edə bilmir də. Çünki ora seçilənlərin çoxu təsərrüfatçıdan daha çox siyasi düşüncəlidir".



Ekspertlər də Azərbaycan bələdiyyələrinin səlahiyyətləri kimi maliyyə resurslarının da son dərəcə məhdud olduğunu deyirlər. Məsələn, kənd bələdiyyələrinin illik büdcəsi 10 min manatdan azdır. Bu məbləğlə 4-5 nəfərlik heyəti olan bir bələdiyyədə əmək haqqı və inzibati xərcləri belə ödəmək mümkün deyil. Neft-qaz şirkətlərində çalışan bir işçinin aylıq məvacibi kənd bələdiyyələrinin aylıq büdcə gəlirlərindən çoxdur. Bələdiyyələrin fəaliyyəti əsasən Türkiyə və Gürcüstandakı yerli idarəetmə sistemləri ilə müqayisə olunur. Məsələn, Gürcüstanda ilk dövrlərdə bələdiyyələrin sayı çox olsa da, 2013-cü ildə yerli özünüidarə sahəsində islahatların ikinci dalğası çərçivəsində bələdiyyələrin sayı əhəmiyyətli dərəcədə azaldılıb. 2017-ci ildə qəbul edilmiş yeni qanunvericilik paketinə əsasən, Gürcüstanda əhali bələdiyyələri rayon və şəhərlər səviyyəsində seçir. Kəndlər isə rayon bələdiyyələri tərəfindən təyin edilən şəxslər tərəfindən idarə olunur. Bələdiyyələr partiya sistemi əsasında formalaşır. Tbilisi şəhərinin isə paytaxt kimi xüsusi, həmçinin seçkili yerli özünüidarə statusu var.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə deyib ki, bələdiyyələrin mülkiyyətində əmlak və torpaq olmaması, bu qurumlarla icra hakimiyyətlərinin bir-birini təkrarlaması, asılı vəziyyətdə qalmaları olduqca aktual məsələlərdir**. Partiya rəhbərinin fikrincə, bu məsələlərin hər birinə zamanın çağırışlarına və tələblərinə uyğun şəkildə yenidən baxılmalıdır: "Bu sferada islahatların aparılması və bələdiyyələrin səlahiyyətlərinin genişləndirilməsi zəruri və qaçılmazdır. Hazırda ölkəmizdə genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatlar heç şübhəsiz ki, bələdiyyə sektorunu da əhatə etməlidir. İlk növbədə rayon icra hakimiyyətləri ilə bələdiyyələrin münasibətlərinə aydınlıq gətirmək və bununla əlaqədar mövcud qanunvericilikdəki boşluğu aradan qaldırmaq lazımdır. Elə etməliyik ki, bələdiyyələr icra başçılarının monopoliyasından, dərəbəyliyindən, diktəsindən həmişəlik qurtulsun. Ümumiyyətlə, icra başçıları institutu tamamilə ləğv edilməlidir. Onların səlahiyyətlərinin əksəriyyəti məhz böyük şəhər bələdiyyələrinə və yerli bələdiyyələrə verilməlidir. Qardaş Türkiyənin təcrübəsindən yararlana bilərik. Bələdiyyələri formal mövcudluq durumundan xilas etmək lazımdır. İnkişaf etmiş bələdiyyə sisteminin formalaşması əsas hədəflərimizdən biri olmalıdır. Oturuşmuş bələdiyyə sisteminin və güclü bələdiyyə ənənələrinin mövcudluğu ölkəmizin dünyadakı demokratik imicinin formalaşması baxımından böyük əhəmiyyət kəsb edir".

**Ə.Hüseynov vurğulayıb ki, paytaxtımızda və bir sıra digər iri şəhərlərimizdə böyük şəhər bələdiyyələrinin yaradılması çox vacibdir:** "Bakı və Gəncədən başqa Sumqayıt və Naxçıvanda da böyük şəhər bələdiyyələri yaradıla bilər. Şəhər merlərinin və ya bələdiyyə başçılarının real seçkilər nəticəsində seçilməsi iri şəhərlərimiz arasında rəqabətə səbəb olacaq və inkişaf üçün yeni imkanlar yaradacaq. Həmçinin, işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən Şuşada da bələdiyyə institutunun əsaslarının yaradılması istiqamətində bəri başdan düşünmək lazımdır. Bir sözlə, bütün ölkə miqyasında bələdiyyələrin inkişafı prosesinə start verməyin zamanı çatıb. Bu sahədə ciddi islahatlar aparmaqla bələdiyyələrə "ikinci nəfəs" verilməsinə ehtiyac var. Bələdiyyə institutunun dirçəlməsi və inkişaf etməsində siyasi partiyalar da öz töhfəsini verə bilər".

**İsmayıl Qocayev**

# 20 il hakimiyyətdə olan qüvvələr məğlub oldular

## Ermənistandakı proseslər artıq final mərhələsinə yaxınlaşır

Ermənistan müxalifəti ölkədə yaranmış xaosdan - baş nazir, prezident və ordu rəhbərliyi arasındakı intriqadan istifadə edərək növbəti dəfə inqilaba cəhd edəcək. Bu barədə erməni KİV-ləri yazıblar. Yazıda hazırda Ermənistan tarixinin ən ağır günlər yaşadığı qeyd olunub. Həmçinin, məqalədə İrəvandakı siyasi oyunlarda artıq iki tərəf deyil, üçüncü qüvvənin də meydana atıldığı yazılıb. "Top" isə prezidentin qərarı ilə meydandan kənara çıxdı.

Qeyd edək ki, dünən Ermənistan Prezidenti Armen Sarkisyan Baş Qərargah rəisi Onik Qasparyanla bağlı Konstitusiya Məhkəməsinə müraciət edib. Bundan bir qədər əvvəl isə Baş nazir Nikol Paşinyan Onik Qasparyanın 10 mart tarixindən etibarən vəzifəsindən azad edildiyi barədə bəyanat verib. Paşinyan bildirib ki, ölkə prezidentinə təqdim olunan fərman layihəsini imzalamayıb, qanunla müəyyən edilmiş müddətdə Konstitusiya Məhkəməsinə müraciət etməyib. Bununla da Qasparyan vəzifəsindən azad edilmiş hesab olunur.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlamasında politoloq Xəyal Bəşirov vurğulayıb ki, 44 günlük İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra gözlənildiyi kimi Ermənistanda siyasi təlatümlər davam edir.** Politoloq bildirirb ki, ancaq hazırkı mərhələdə proseslərin final mərhələsinə yaxınlaşdığını görmək olur: "Ən az mühüm bir mərhələ geridə qalmaqdadır. Dörd aylıq zaman ərzində səriştəsiz, təcrübəsiz və idarəetmə bacarığı olmayan Paşinyanın müxalifətə qalib gəldiyini görürük. 10 noyabr Bəyanatından sonra baş verən əsas hadisələrə nəzər yetirsək hər şey aydın olur. Koçaryan və Sarkisyanın rəhbərlik etdiyi Qarabağ klanı bir neçə amilə ümid edirdi. İlk olaraq onlar müharibəni uduzan Paşinyanın hər bir halda hakimiyyətdən gedəcəyinə əmin idilər. Daha sonra, onlar özlərinin, xüsusilə də Koçaryanın Vladimir Putinlə şəxsi münasibətləri amilindən istifadə etməyi düşünürdülər. Bu münasibətlərin fonunda rəsmi Moskvanın Paşinyana rəğbətinin yox səviyyəsində olması Ermənistan müxalifətini bir qədər də arxayın edirdi. Ancaq proseslər göstərdi ki, hətta zəif Nikolla mübarizədə belə, Ermənistanda 20 ildən artıq hakimiyyətdə olan qüvvələr məğlub olmaqdadırlar. Bunu şərtləndirən əsas amil Paşinyana aid olan hansısa xüsusiyyət deyil. Sadəcə, müharibə çağırışları edən revanşist qüvvələrə müharibə istəməyən Ermənistan cəmiyyətinin cavabı sərt oldu. Ermənistan əhalisi gec də olsa artıq anladı ki, onların bütün bədbəxtliklərinin əsası Azərbaycana qarşı işğal və təcavüz siyasəti, o cümlədən qonşulara ərazi iddiaları ilə bağlıdır. Onların bu cür qənaətə gəlməsində Azərbaycan dövlətinin də rolu az olmadı. Azad edilmiş ərazilərimizi görəndən sonra anladılar ki, bu illər ərzində onları hansı vəhşi və vandal xislətli insanlar idarə edib".

**"Müharibə çağırışları edən revanşist qüvvələrə müharibə istəməyən Ermənistan cəmiyyətinin cavabı sərt oldu"**



**X.Bəşirov qeyd edib ki, Paşinyanın məğlub dövlətin rəhbəri və məğlub ordunun Ali Baş Komandanı olması reallıq olsa da, erməni xalqı bu məğlubiyyəti tək onun adına yazmağın düzgün olmadığını da anlayıb:**

"Prezident İlham Əliyev azad edilmiş ərazilərdəki çıxışlarında heç də əbəs yerə demirdi ki, biz Paşinyanın yox, Koçaryan və Sarkisyanın ordusunu məğlub etdik. Bu fikirlər, Ermənistan cəmiyyətində məğlubiyyəti təkcə Paşinyanın adına yazmağa cəhd edən erməni müxalifətinə qarşı düzgün mövqe seçməkdə yardımçı oldu. Bu gün Ermənistan əhalisinin mütləq əksəriyyəti müharibəyə qarşıdır. Bu da müxalifəti ictimai dəstəkdən məhrum edir. Elə bu səbəbdən də, onsuz da xarici təpkiyə məruz qalan hərbi çevriliş cəhdi də uğursuz oldu. Bu günə olan nəticələr hələ ki, Paşinyanın qalib gəldiyini diktə etməkdədir. Siyasi proseslərdən uzun müddət kənarda qalan Ermənistanın ilk Prezidenti Ter Petrosyanın dəstəyinə rəğmən Qasparyanın vəzifəsi ilə vidalaşdığı deyilir. Baş qərargah rəisi Onik Qasparyanı Ermənistanın siyasi müxalifəti olan Qarabağ klanının ən son ümid yeri hesab etmək olardı. Bu artıq gərgin bir mərhələnin sonu deməkdir. Paşinyanın və arvadının Çauşesku cütlüyü kimi güllələnməsi səhnəsini nümayiş etdirən müxalif cəbhədəki düşmənlərə qarşı qisas addımları reallaşa bilər. Hər bir halda, bu gün Ermənistan hakimiyyəti uğrunda gedən mübarizə artıq çoxdan şəxsi intiqam və qisas müstəvisinə qədəm qoyub. Qalib gələn tərəfin qarşı tərəfə münasibətdə vendetta təşkil edəcəyi də istisna olunmur. Bu vendetta bəlkə də, Ermənistanı dalana çevirən və təcrid vəziyyətinə salan siyasətdən xilas edəcək. Bu isə artıq zamanın iradəsindən asılı olan bir məsələdir".

**Aynurə Pənahqızı**

# Kremlin təzyiqləri getdikcə zəifləyəcək



## "Heç bir qüvvə bizim torpaqlarımızda avtoritetlik edə bilməz

Rusiyadan Ermənistana "tikinti materialları" daşınmaqda davam edir. Məgər, İrəvanda imarət tikirlər?! Ona görə "imarət" deyirəm ki, bu qədər malın, həqiqətən, tikinti materialı olduğuna inansaq, deməli, daxma tikmək fikirləri yoxdur. Amma məsələnin heç də tikinti, inşaat olmadığı məlumdur.

"Tikinti materialları" adı altında Moskvadan İrəvana raketlərin, pulemyotların, "Kalaşnikov"ların daşındığı kimsəyə sirr deyil. Bu, nə Allaha gizlidir, nə də bəndəyə...Yaxşı, bəs niyə? Özünü "süddən çıxmış ağ qaşıq" kimi göstərən Kreml, həqiqətən, növbəti müharibənin başlanmasında maraqlıdır?

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə açıqlamasında şimal qonşumuzun savaş istəmədiyini faktlarla izah etdi:** "Bu, Rusiyanın regionla bağlı planlarına ziddir. 10 noyabr razılaşmasının şərtlərinin pozulması Kremlin beynəlxalq imicinə zərbə olacaq. Üstəgəl, Rusiyanın dünyadakı nüfuzunun qorunmasında Azərbaycanın da şərait yaratdığı məlumdur. Prezident İlham Əliyev özü bu barədə deyib. Hər halda Ermənistanın Kremlə necə zərbə vurduğu hər kəsə məlumdur. Onu da deyim ki, bölgənin iqtisadi imkanlarının artırılmasında Azərbaycan, Türkiyə və İran kimi, Rusiya da maraqlıdır. Çünki şimalla cənubu, Rusiya ilə Ermənistanı, həmçinin İranı birləşdirən ən yaxın nəqliyyat dəhlizinin Zəngəzurdan keçdiyi məlumdur. Rəsmi Moskvanın həmin dövlətlərlə iqtisadi rentabilliyinə mane olan isə Gürcüstanla münasibətlərdir. Yəni Zəngəzur dəhlizinin açılmasını şimal qonşumuz da istəyir".

**Ə.Əlibəyli ən prioritet məqamın nə olduğunu da vurğuladı:** "Belə ajiotaj yaradan məsələlərin kökündə Rusiyanın Qarabağda söz sahibi olmaq iddiası dayanır. Başqa sözlə desək, Kreml bizim torpaqlarımızda avtoritetlik etmək istəyir. Ona görə də təzyiq vasitələrini artırır. Lakin məncə, elə də ciddi məsələlər deyil və tədricən gündəmdən düşəcək. Dövlət başçısının fevralın 24-də keçirdiyi brifinqdə dediyi kimi, proseslər anbaan izlənir və biz lazımi anda adekvat cavab vermək iqtidarındayıq. Əsas məsələ Zəngəzur dəhlizinin açılması olmalıdır".

**Kənan**

**Qondarma Dağlıq Qarabağ respublikasının "müdafiə nazirliyi"nin mətbuat katibi olmuş Senyor Asatryan Ermənistanda yaşanan hərbi-siyasi böhrana münasibət bildirib. O, ordu rəhbərliyinə olan dəstəyini gizlətməyib:**



"Əlbəttə ki, bu hərbi-siyasi qarışıqlıqda ordu ən çətin vəziyyətdədir. Çünki konstitusiyaya görə, ordu torpaqların təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq üçün nəzərdə tutulub. Ancaq əvvəllər belə çətin bir vəzifəyə sahib olmaqla yalnız bu yöndə düşünməməli, eyni zamanda hakimiyyəti elə keçirmiş təsadüfi şəxslərin şıltaqlıqlarına müqavimət göstərməlidir. Xalqın dəstəyi olmadan bu çox çətin olacaq".

# Uduzmuş liderə dəstək azalmır

## Səbəb odur ki, erməni cəmiyyəti keçmiş klana dönmək istəmir

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli vurğulayıb ki, Senyor Asatryan keçmiş Qarabağ klanının nümayəndəsidir. Politoloq qeyd edib ki, o, əvvəlki hakimiyyətdə ordu sıralarında yer alıb:**

"İndi onun ordunun dəstəkləməsi təbiidir. Çünki Paşinyana qalxan ordu təbii ki, Moskvadan idarə olunan Qarabağ klanının nümayəndələridir. Bir faktı da nəzərə alaq ki, müharibəni uduzan və darmadağın olan da elə həmin ordudur. Bildiyimiz kimi, Ermənistan sərhədlərini başqa bir dövlət qoruyur. Bu da Ermənistan ordusunun nə qədər pis vəziyyətdə olduğunun bariz göstəricisidir".

Politoloq əlavə edib ki, bütün bu faktlar həm də Ermənistan dövlətinin oyuncaq olduğunun sübutudur: "Ona görə də, hesab edirəm ki, Senyor Asatryanın çıxışı sadəcə olaraq təmsil olduğu klana bir dəstəkdir. Ola bilər ki, Paşinyan təsadüfi adamdır. Amma fakt odur ki, Ermənistan xalqı onu dəstəkləyir. Uduzmuş liderinə belə arxa durur ki, təki əvvəlki hakimiyyət - Qarabağ klanı və yaxud da Rusiyanın dəstəklədikləri qüvvələr hakimiyyətə gəlməsin. Bu artıq erməni cəmiyyəti üçün ciddi bir siqnaldır, Azərbaycan üçün də. Düşünürəm ki, bu cür nüfuzu olmayan şəxslərin açıqlamaları Paşinyana ciddi təhlükə yaratmayacaq".

**Aynurə Pənahqızı**

# "Bu gün də pul yığılır"

## Rey Kərimoğlu: "Müdafiə Nazirliyində ictimai şura yaradılsa, yaxşı olar"



**Tanınmış hərbi jurnalist, Qarabağ qazisi, "Qazilər.az" saytının baş redaktoru Rey Kərimoğlu özünün "Facebook" hesabında maraqlı təkliflərlə çıxış edib. O, həmçinin bəzi nöqsanları da üzə çıxarıb. Hərbi jurnalist ordumuzla bu və ya digər formada bağlı olan bir sıra məqamları ictimailəşdirib, onların həllini tələb edib. Etiraf edək ki, ordumuzda illərdir müzakirə edilən müəyyən çatışmazlıqlar var. Onlar mütləq aradan qalxmalıdır. Heç olmasa, Silahlı Qüvvələrimizdəki məlum islahatlardan sonra...**

*R. Kərimoğlu gündəmə gətirdiyi məsələlərlə bağlı "Şərq"in suallarını cavablandırdı:*

**- Müdafiə Nazirliyinin tərkibində İctimai Şuranın yaradılmasını nəyə görə zəruri hesab edirsiniz?**

- Təxminən 5-6 il əvvəl ictimai şuraların yaradılması barədə qanun qəbul edildi. Həmin sənəddə hansısa istisna yoxdur. Elə isə niyə Müdafiə Nazirliyinin tərkibində İctimai Şura yaradılmır?! Millət vəkili Zahid Oruc parlamentin Müdafiə Nazirliyinə nəzarət etməsi məsələsini gündəmə gətirəndən sonra belə bir təkliflə çıxış etdim. Doğrudan da, sözügedən nazirlik üzərində nəzarət yoxdur. Keçmiş baş qərargah rəisi Nəcməddin Sadıqov nazirlikdə "at oynadıb". Korrupsiya, rüşvətxorluq baş alıb gedirdi. İndi düzgün nəzarət sistemi yaradılmalıdır. Beləliklə, vicdanlı hərbi ekspertlər, o cümlədən hüquq müdafiəçiləri İctimai Şuranın tərkibində yer alaraq, nazirliyin fəaliyyətinə nəzarət etməlidir.

**- Hərbi hissələrdə və onların yaxınlığındakı mağazalarda qiymətlərin baha olmasına dair narazılığınızı ifadə etmisiniz. Bu informasiya sizdə haradandır?**

- Özüm görmüşəm. Düzü, belə olduğunu bilmirdim. Müharibə dövründə qazi yoldaşlarımızla birlikdə cəbhənin cənub bölgəsində olduq. Hərbi hissədə qalırdıq. Deməli, şəhərdə iki manata olan siqaret hərbi hissələrdəki və onların yaxınlığındakı mağazalarda üç manatdır. Belə misallar çox çəkə bilərəm. Orda da məsələ ilə bağlı etiraz etdik. Sonradan kiçik bir araşdırma apardım. Məlum oldu ki, sözügedən hərbi hissələr Nəcməddin Sadıqova "hesab verirlərmiş". Məndə olan məlumata görə, Füzulidən Tovuzadək keçmiş baş qərargah rəisinə hər ay 30 min manat vəsait gedirmiş. Bu gün də pul yığılır. Lakin həmin vəsaitin hara, kimə getdiyini heç kim bilmir. Odur ki, məsələ ilə bağlı DTX-nın rəisi general-polkovnik Əli Nağıyevə "Facebook" üzərindən müraciət etdim. Onun problemi araşdıracağına inanıram. Niyə kimlərsə əsgər və zabitlərimiz hesabına ciblərini doldurmalıdırlar?!

**- Nə üçün "İkinci Qarabağ müharibəsi" anlayışının doğru olmadığını düşünürsünüz?**

- Çünki yanaşma doğru deyil. Məncə, "Son döyüşlərin Şəhidləri, Qaziləri, veteranları" yazılsa, daha doğru olardı. Heç ermənilərlə sülh sazişi də bağlanmayıb hələ. Sabah yenə döyüşlər başlaya bilər. Ona da "Üçüncü Qarabağ müharibəsi deməliyik?" Bu, döyüşçülərimiz arasında da ayrı-seçkilik etmək deməkdir və əsla doğru deyil. Ona görə də təklif etmişəm ki, 2020-ci il, sentyabrın 27-də başlayan hərbi əməliyyatlar birmənalı olaraq "Son döyüşlər" adlandırılsın.

**Kənan**

## Paşinyan Baş Qərargahın şəxsi heyəti ilə görüşüb

### O, feysbuk səhifəsində görüşün videosunu da paylaşıb



**Ermənistanın baş naziri Nikol Paşinyan Silahlı Qüvvələrin şəxsi heyəti ilə görüş keçirib.**

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, o, feysbuk səhifəsində görüşün videosunu da paylaşıb.

Nikol Paşinyanın Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə namizəd olaraq təqdim etdiyi Artak Davtyan da kadrda görünür.

Qeyd edək ki, martın 10-da Nikol Paşinyan general-leytenant Artak Davtyanın Silahlı Qüvvələrin Baş Qərargah rəisi təyin olunması təklifi ilə prezident Armen Sarkisyana müraciət edib. Armen Sarkisyan onun namizədliyini üç günə təsdiqləməlidir.

*Xatırladaq ki, A.Davtyan martın 9-da Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının xüsusi tapşırıqlar üzrə baş zabiti vəzifəsi təyin edilmişdi.*

# Möhtəkirlər meydana girmək istəyirlər

## "Qara bazarda" peyvənd də var, saxta peyvənd sertifikatı da...

*Koronavirus peyvəndi, saxta peyvənd sertifikatı, hətta peyvəndlənmə arayışı da internetdə satışa çıxarılır. Bu barədə informasiya təhlükəsizliyi sahəsində məşhur "Kaspersky" şirkəti məlumat yayıb.*

Məlumatda qeyd edilir ki, "Kaspersky" 15 kölgə saytını araşdırıb və üç növ patentləşdirilmiş koronavirus peyvəndi - Pfizer / BioNTech, AstraZeneca və Modernanın, eyni zamanda hələ patentləşdirilməmiş bəzi digər peyvəndlərin satışına dair elanlar aşkarlayıb. Bir nəfər üçün bir dozanın qiyməti 250-1200 dollar arasında dəyişir və ortalama 500 dollara təklif olunur.

"Kaspersky"nin məlumatına görə, elanlar əsasən Fransa, Almaniya, İngiltərə və ABŞ-dan gəlir. Satıcılarla ünsiyyət üçün mesajları taymerlə silmək funksiyasına malik etibarlı messencerlərdən istifadə olunur. Ödəniş əsasən bitkoinlərlə tələb olunur. Əməliyyatların təhlilinə əsasən, "Kaspersky" tərəfindən aşkarlanan bir çox elan müəllifi 100-dən 500-ə qədər əməliyyat həyata keçirib.

"Darknetdəki (anonim iştirakçılardan ibarət gizli şəbəkə) peyvənd satışı elanlarının skam olub-olmaması və ya alıcıların həqiqətən axtardıqlarını əldə edib-etməməsi barədə qəti bir nəticə çıxarmaq mümkün deyil. Bu elanlardan bəzilərinə müsbət rəylər yazılıb. Bəzi əməliyyatlar nəticəsində insanların həqiqətən də istədikləri məhsulu aldıqlarını düşünmək olar. Nəzəri cəhətdən bu mümkündür, çünki dünyanın müxtəlif yerlərindəki xəstəxanalarda bəzən peyvənd paketi açıldıqdan sonra istifadə olunmamış dozalar qalır. Bununla belə, peyvəndin düzgün saxlanılması üçün bütün şərtlərin yerinə yetirildiyinə dair bir zəmanət əldə etmək mümkün deyil. Ampulaların içində həqiqətən də peyvəndin satıldığına dair bir zəmanət də yoxdur," deyə "Kaspersky"nin kiber təhlükəsizlik üzrə mütəxəssisi Dmitri Qalov bildirib.



*"Bu, qanun pozuntusu olmaqla yanaşı, həm də çox təhlükəli tendensiyadır. İnsanlar buna aldanmamalıdır"*

"Qara bazar"da saxta peyvənd sertifikatları da satılır. Məsələn, Avropa sertifikatı nümunəsinin müvafiq sənədinin qiyməti təxminən 20-25 ABŞ dollarıdır. Bundan əlavə, bəzi ölkələrdə, məsələn, ofisə getmək və ya işgüzar səfərlər, məzuniyyət gəzintiləri üçün COVID-19-a yoluxmama barədə arayış tələb olunur. Darknetin rus dilində danışan seqmentində bu sənədin qiyməti 3500-5000 rubl (47-67 ABŞ dolları) arasında qiymətləndirilir.



Görünən budur ki, işbazlar, saxta və yüngül yollarla nəhəng qazanc əldə etməyə çalışanlar bəşəriyyəti ölümlə üz-üzə qoymuş virusdan da qazanmaq istəyirlər. İnternet üzərindən koronavirus vaksini əldə etmək mümkündürmü? Tutalım, kimsə, peyvənd aldı, aparıb həkimə verəcək ki, bu vaksini ona vursun?! Qəribə və müəmmalı vəziyyətdir. Həmçinin, internet üzərindən peyvənd vaksini sertifikatı almaq fikrinə düşənlərin məqsədi nədir? Peyvənd istehsalçısı olmaq?

**Azərbaycan Tibb Universitetinin professoru Adil Qeybulla "Şərq"ə açıqlamasında koronavirus əleyhinə vaksinin satışının mümkünsüz olduğunu bildirdi:**

- Vaksinin internet üzərindən satışı ola bilməz. Peyvəndlənmə bütün dünyada pulsuzdur. Pulsuz olmalıdır. Dövlətlər vaksini alır və vətəndaşlarına pulsuz peyvəndləmə həyata keçirir. Kimlərsə, hansısa ölkədə vaksini alıb-satırlarsa, bu artıq kriminaldır. Ola bilsin, hansısa şirkətlər korporativ maraqlardan çıxış edir. Vaksinlərlə bağlı qayda belədir ki, ölkələr onu sifariş edir. Əhali sayı, nə qədər dozada vurulacağı nəzərə alınaraq. Görürük ki, inkişaf etməmiş ölkələrdə vaksinasiya ilə bağlı problemlər var. Hazırda Dünya Səhiyyə Təşkilatı kasıb ölkələrdə vaksinasiyanın həyata keçirilməsi üçün yollar axtarır, nəhəng şirkətləri bu işə cəlb etməyə çalışır. Belə olduğu halda, vaksinin internet üzərindən satışını təşkil etmək cinayətdir.

**A.Qeybulla qeyd etdi ki, bu məsələnin qaranlıq tərəfləri çoxdur:**

- İnternet üzərindən vaksin satışı, inandırıcı görünmür. Həm də təhlükəlidir. Vaksinin xüsusi daşınma qaydaları var. Hansı temperaturda, necə daşınmalıdır. Bunlara dəqiq əməl edilməsə, vaksin xarab olur. Yararsız hala düşür. Hər sahədə olduğu kimi vaksinlə bağlı da möhtəkirlər meydana girmək istəyirlər. Lakin bu, qanun pozuntusu olmaqla yanaşı, həm də çox təhlükəli tendensiyadır. İnsanlar buna aldanmamalıdır.

**A.Qeybulla xəstəxanalarda bəzən peyvənd paketi açıldıqdan sonra istifadə olunmamış dozalar qalması ilə bağlı məlumatların da həqiqətə uyğun olmadığını bildirdi:**

- İstifadə olunmamış dozalar qalması faktiki mümkün deyil. Vaksin flakonu 3 və ya 5 dozalıq olur. 3 dozalıqdırsa 3 nəfərə, 5 dozalıqdırsa 5 nəfərə vurulmalıdır. Flakon açılırsa, dozasından asılı olaraq 3 və ya 5 nəfərə vurulur. Vaksinlər sayla, nömrələnmiş halda olur. Burda "istifadə olunamamış doza" söhbəti inandırıcı deyil. Eləcə də, saxta vaksin arayışı almağa nə lüzum var? Belə çıxır ki, insan özünü aldadır?! Vaksinasiya yoluxma halında xəstəliyi yüngül keçirmək, ağırlaşmalara məruz qalmamaq üçündür. Yalandan saxta arayış əldə etməklə nəyə nail olmaq istəyirlər? Tutalım, saxta arayışla hansısa ölkəyə səfər edildi, bəs yoluxma baş verəcəksə, onda vəziyyət necə olacaq? Yəni bu məsələlər möhtəkirlərin oyunlarıdır. Vətəndaşlar gərək aldanmasın. İnternet üzərindən sertifikat əldə etməksə, mümkündür. Buna da farmkompaniyalar can ata bilər. Özlərini peyvənd istehsalçısı kimi tanıtmaq üçün. Bu məsələlərlə ÜST ciddi məşğul olmalı, saxtakarların ələ keçirilməsində maraqlı olmalıdır.

**Məlahət Rzayeva**

# “Qələmimizlə şeir yazmaqdansa, silahımızla tarix yazdıq”

## Oğuz Alparslan: “Əsgərimiz son nəfəsində də “Vətən marşı” oxuyurdu”





Vətən müharibəsində ən müxtəlif təbəqələrdən olan insanlar iştirak edirdi. Onların arasında əlinə heç vaxt silah almayanı da var idi, peşəkarı da. Adını heç vaxt eşitmədiklərimiz də var idi, cəmiyyətdə kifayət qədər tanınanlar da. Bax, belə mərd oğullardan biri də məşhur, sevilən aktyor Oğuz Alparslan idi. İndiyədək çoxlarımızın ancaq televiziya ekranlarında gördüyümüz bu gənc İkinci Qarabağ savaşında sinəsini torpağa sipər etdi, ölümlə burun-buruna dayandı.

Oğuz bəy 1986-cı ildə Cəlilabad rayonunda anadan olub. Atatürk Universitetini bitirib. 2006-cı ildə həqiqi hərbi xidmətdə olub. Hazırda ailələdir və bir övladı var. Amma nə işi, nə də ailəsi onun torpaq təəssübkeşliyinə üstün gəldi.

**O, özünün də ”Şərq”ə dediyi kimi, böyük sevinclə, sanki toya-bayrama gedirmişcəsinə cəbhəyə yollanıb:** ”Müharibədə könüllü iştirak edirdim. Evini təmir etdiyim bir hərbçi dostum var idi. Günlərin birində mənə zəng edib cəbhəyə yola düşdüyünü dedi. Halallıq istədi. Bu sözündən sonra yerimdə dura bilmədim və yerli hərbi komissarlığa müraciət etdim. Narahatlıqla düşünürdüm: ”Görəsən, məni geri qaytarmazlar?”. Elə bu vaxt telefonuma müvafiq mesaj gəldi. Bəli, Vətən məni çağırırdı. Hərbi komissarlığın həyətində böyük bir izdiham var idi. Həmin anlarda xalqımla, millətimlə bir daha fəxr etdim. Qardaşıma zəng edib övladımı hərbi komissarlığa gətirməsini xahiş etdim. Sənədlərimi təhvil verib, əmr gözləməyə başladım. Çox keçmədi ki, adım çəkildi. Əlində mikrofon tutan zabitə yaxınlaşdım. Mikrofonu aldım və millətimlə qürur duyduğumu dedim. Qələbə ilə qayıdacağıma söz verdim. Ardınca isə müəllifi olduğum ”Türkəm mən” şeirini səsləndirdim və bizi cəbhəyə aparan avtomobilə mindim. Maşın hərəkət etdikcə sevdiklərimdən uzaqlaşır, Qarabağa tələsirdim”.

*O.Alparslanın sözlərinə görə, hərbi əməliyyatlar çox çətin şəraitdə keçib:* ”Qubadlı zirvələrində, Ermənistanla sərhəddə ağır döyüşlər oldu. Çətin dağ şəraitində, meşədə səhər tezdən axşamadək döyüşdük. Yandırılan meşə sanki üstümüzə gəlirdi. Tüstüdən göz-gözü görmürdü. Bütün çətinliklərə, o cümlədən şəhidlər verməyimizə rəğmən, vəziyyət bizim xeyrimizə idi. Hər birimiz, eləcə də, zabitlər böyük şücaət göstərirdik. Xüsusilə tabor komandirimizin qəhrəmanlıqları və cəsurluğu adamı heyrətə gətirirdi. Həmin gün zirvə döyüşləri bitmişdi. Yenicə rahat nəfəs almağa başlamışdıq ki, düşmən ağır artilleriya ilə uzaq məsafədən atəş açdı. Minamyot mərmisinin səsini eşidən kimi qorunmaq üçün fərqli mövqelərə atıldıq. Tabor komandirimiz polkovnik-leytenant Nail Orucov əsgərlərindən birini xilas etməkdən ötrü özünü onun üstünə atdı və şəhid oldu. O, şəhadətindən bir gün əvvəl həyat yoldaşı ilə danışırdı. Xanımı demişdi ki, ehtiyatlı ol, üç uşağın var. Komandirimizin cavabı konkret idi: ”Mənim orda üç, burda üç yüz övladım var. Haqqınızı halal edin və evin giriş qapısına bayraq asın”. Cənab polkovnik şəhid olacağını bilirdi. Ən cəsur hərbçilərdən biri də 22 yaşlı Etibar Ağayev idi. Deməli, bir dəfə yenə zirvə döyüşü gedirdi. Etibar bizdən bir az aralıda döyüşürdü. Yanındakı yoldaşları şəhid olduğuna görə özünü tək hesab edirdi. Verilən əmrə uyğun olaraq ona yaxınlaşmışdıq. Amma Etibar bizi görmürdü. Sursatı tükəndiyi üçün oradan xilas ola bilməyəcəyini düşünürdü. Arxası üstə çevrilib Vətən marşı oxuyurdu. Bu, onun üçün şəhidlik zirvəsinə gedən yol idi. Biz çatanda komandirimiz səsi eşidib kövrəldi. Soruşdu ki, kimdir ”Vətən marşı”nı oxuyan? Etibar olduğunu dedim. Səsindən tanımışdım. Bu vaxt Etibar özü də qışqırdı: ”Mən!”. Şükür, onu ölümün pəncəsindən xilas edə bildik. Yəni o, son nəfəsində də ”Vətən marşı” oxuyurdu”.



**“Şükür ki, zəfər şərbətini içdik, Qarabağı azad etdik və vətən daşı ola bildik”**

*Müsahibimiz fərəhli və sevincli olduğunu söylədi:* ”Döyüş yolum Füzulidən başlamışdı. Cəbrayılı da işğaldan azad etdik. Qubadlını və Qubadlı zirvələrini yenicə fəth etmişdik ki, sülh elan olundu. Füzulidən başlayan yol Xocavənddə bitdi. Tərxis olunduq. Mən də qələm əhliyəm. Orda hərdən bədahətən şeir deyirdim. Amma yazmağa imkan yox idi. Qələmimimizlə şeir yazmaqdansa, silahımızla tarix yazdıq. Ən çox uşaqlarım üçün darıxırdım. Onlara ən qısa zamanda və zəfərlə qayıdacağıma söz vermişdim. Ümumiyyətlə, yolumu gözləyənlərin həsrəti məni həddsiz darıxdırırdı. Tək təsəllim isə Vətənə olan borcumu yerinə yetirməyim idi. Bilirdim ki, bu yolda şəhid də olsam, övladlarım mənimlə qürur duyacaqlar. Döyüş yoldaşlarımın hər biri gülərüz, mehriban idi. Polkovnik Nail Orucov, mayor Müseyib Zeynalov, baş leytenant Ramin Bayramov, əsgərlər Kamran Səmədov, Füzuli Həbibi, Şamil Hüseynli, Cavad Babayev və başqaları şəhidlik zirvəsinə ucalanda da sevincli idilər - gözlərində işıq, üzlərində təbəssüm var idi. Onlar mənim yaddaşımda əbədi olaraq cəsur, gülərüz qəhrəmanlar olaraq qalacaqlar. Zəfər müjdəsini baş leytenant Azayevdən almışdım. Həmin vaxt döyüş növbətçisi idim. Sevincimin həddi-hüdudu yox idi. Şükür ki, zəfər şərbətini içdik, Qarabağı azad etdik və vətən daşı ola bildik. Biz gələcək nəsillərə azad Qarabağı miras qoyduq!”.

**Kənan Novruzov**

---

# 5 yaşlı qızcığazın davranışları dəyişdi, danışmağa başladı

## *Küçəyə atılmış Nərgiz atadan deyil, anadan şiddət görüb*



Küçədə köməksiz vəziyyətdə tapılmış 5 yaşlı qızcığaz hazırda Azərbaycan Uşaqlar Birliyinin Uşaq Reinteqrasiya Mərkəzindədir. Onunla birlikdə 4 yaşlı bacısı və yaş yarımlıq qardaşı da Mərkəzdə qalırlar.

**Uşaqların durumu barədə ”Şərq”ə danışan AUB-nin sədri və mərkəzin direktoru Kəmalə Ağazadə qeyd etdi ki, əvvəlki günlərə nisbətən 5 yaşlı Nərgizin davranışlarında müsbət dəyişikliklər var:**

- Uşaq bizim sığınacağa təhvil veriləndə danışmırdı, sorğulara cavab vermirdi, ətrafda baş verənlərə reaksiyası zəif idi. Onunla lazımi iş aparıldı. Həkim müayinəsindən keçirildi, mütəxəssislər onunla söhbət etdilər, nervopatoloq Elşən Qarayev müalicə təyin etdi. İndi Nərgizdə müsbət dəyişikliklər var artıq. Bacısı, qardaşı da sığınacaqdadır. Və onlara da lazımı qulluq və qayğı göstərilir. Sığınacağa yerləşdirildiyində uşaqların qorxu içində olmaları, ünsiyyətə girməmələri onların evdə şiddət gördüklərini deməyə əsas verir.

**”Uşaqlar ana tərəfdən, yoxsa atadan şiddət görüblər” sualına cavabında K.Ağazadə qeyd etdi ki, uşaqlar ataları haqqında pis söz demirlər:**

- Uşaqların danışığından belə anlaşılır ki, analarından şiddət görüblər. Ataları haqqında pis danışmırlar. Yaxşı sözlər deyirlər. Mən ata ilə söhbət etmişəm. Normal təsir bağışlayır. Düzdür, hazırda işsizdir, lakin işləyən adamdır, işi olub, qazanc gətirib. Hətta mən onu qınadım ki, görürdünüz qadın xəstədir, niyə dünyaya övlad gətirirdiniz?! Məlumdur ki, qadın dördüncü övladına hamilədir hazırda. Uşaqların atası mənə dedi ki, yoldaşının xəstəliyi 2-ci övladları dünyaya gələndən sonra üzə çıxıb. Amma mənə verilən digər məlumatlara görə, qadında belə bir xəstəlik əvvəldən var imiş.

**“Əgər ananın anlaqlı olmadığı bir daha təsdiqlənərsə, valideynlik hüququ ataya veriləcək”**

**K.Ağazadə valideynlik hüququnun böyük ehtimalla ataya veriləcəyini söylədi:**

- Anada ruhi-əsəb xəstəliyi varsa, sözsüz ki, valideynlik hüququ ataya verilməlidir. Qadın bundan əvvəl də müalicə alıb. Hazırda da müalicə alır. Əgər ananın anlaqlı olmadığı bir daha təsdiqlənərsə, valideynlik hüququ ataya veriləcək. Buna müvafiq icra hakimiyyəti orqanı yanında Qəyyumluq şöbəsi qərar verəcək. Uşaqlar hələ ki sığınacaqdadırlar. Nə qədər burda qalacaqlar, buna da icra orqanı qərar verməlidir.

Xatırladaq ki, bir neçə gün əvvəl Bakının Xətai rayonu, Naximov küçəsində köməksiz vəziyyətdə tapılmış 5 yaşlı qız uşağı Uşaq Reinteqrasiya Mərkəzinə gətirilib. Hüquq-mühafizə orqanlarının araşdırması nəticəsində qızın valideynləri tapılıb. Məlum olub ki, beş yaşlı uşağın anası psixi cəhətdən sağlam deyil.

İntensiv axtarışlar nəticəsində onun valideynlərini tapmaq mümkün olub. Bu da məlum olub ki, beş yaşlı Nərgiz evin tək uşağı deyil, dörd yaşlı, Dəniz adlı bacısı və yaşyarımlıq Əziz adlı qardaşı var. Uşaqların atasının kimliyi müəyyənləşib və o, Xətai İcra Hakimiyyətinə yönləndirib. Müvafiq sərəncam əsasında 3 uşaq sığınacağa yerləşdirilib. Hazırda atalarının yazılı razılığı ilə Nərgizin bacısı ilə qardaşı da sığınacaqda qalır.

**Məlahət Rzayeva**




# Amandı, ehtiyatlı olun!

## Son dönəmlərdəki intihar hadisələrində təqlid xüsusiyyəti daha çoxdur

"Əvvəllər belə deyirdilər ki, işin var, əmək haqqı alırsan, evin var, ailən var... insana daha nə lazımdır?!"

**Təhsil Nazirliyinin əməkdaşları intihar etmiş şagirdlərin ailələrinə baş çəkiblər.**

**Nazirlikdən verilən məlumatda bildirilir ki, təhsil nazirinin müşaviri Nigar Bağırlı və Abşeron Rayon Təhsil Şöbəsinin müdiri Nazilə Məmmədova intihar etmiş Abşeron rayonu Qobu qəsəbə 2 nömrəli tam orta məktəbin XI sinif şagirdləri - 2004-cü il təvəllüdlü Mətanət Elşən qızı Quliyeva və Əfruz Rafiq qızı Səmədovanın ailələrinə baş çəkib, valideyn və yaxınlarına dərin hüznlə başsağlığı veriblər.**




**"İnsana lazım olan daxili məmnunluq hissi, daxili rahatlıqdır. İndi insanlarda daxili məmnunluq hissi azalıb. İnsanlar daxilən rahat deyillər"**

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov isə bildirib ki, nazirliyin nümayəndələri Abşeron rayonu Qobu qəsəbə 2 nömrəli tam orta məktəbdə intihar faktı ilə bağlı araşdırma aparırlar. Bununla bağlı Təhsil Nazirliyi tərəfindən mətbuata açıqlama veriləcək: "Onu deyə bilərik ki, intihar edən qızlar dərslərini yaxşı oxuyan şagirdlər olub. Onlayn keçirilən dərslərdə də iştirak ediblər. Onlar birlikdə Lökbatana hazırlığa gedirdilər. Psixoloji baxımdan isə problemləri olmayıb. Elə hadisə də qızlar Qaradağ rayonu Lökbatan qəsəbəsinə hazırlığa gedən gün baş verib".

Məlumdur ki, hadisə Qaradağ rayonu Lökbatan qəsəbəsində baş verib. Qızlar özlərini binanın damından ataraq intihar ediblər. Hazırda faktla bağlı istintaq aparılır.

Qeyd edək ki, Təhsil naziri Emin Əmrullayev 11-ci sinif şagirdlərinin intiharı ilə bağlı ailələrinə başsağlığı verib və sosial şəbəkədə paylaşım edib.

"Abşeron rayonu, Qobu qəsəbə 2 nömrəli tam orta məktəbin 11-ci sinfinin iki şagirdinin intiharı bizi dərindən kədərləndirir. Ailə və yaxınlarına səbr diləyirik.

Məsələ ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən müvafiq araşdırma aparılır. Allah rəhmət eləsin!", - deyə nazir qeyd edib.

Yeniyetmə qızların ölümü faciəli hadisədir. Amma yenə də hadisələrin qarşısının alınmadığının, hadisələrin ardınca gedildiyinin şahidi oluruq. Səbəblər hadisə baş verəndən sonra araşdırılır, hadisəni törədə biləcək səbəblər əvvəldən müəyyənləşib qarşısının alınması üçün hərəkətə keçilmir. Nə qədər belə davam edəcəksə, intihar faktlarının da bir o qədər çox baş verəcəyi təhlükəsi mövcuddur. Belə faciəli hadisələri önləmək üçün nələr edilməlidir?

**- Psixoloq Elnur Rüstəmov "Şərq"ə açıqlamasında intihar hallarının baş verməsini cəmiyyətdə ümumi psixoloji gərginliyin artması ilə izah etdi:**

- Bu çox faciəli hadisədir. Amma intiharların qarşısını almaq çətindir, çünki intihaları proqnozlaşdırmaq mümkün deyil. İntiharları proqnozlaşdırmaq mümkün olsaydı, intihar hadisələri baş verməzdi. Bu, insanın daxili dünyasında, daxili aləmində baş verən dəyişiklik, təlatüm, daxildə verilən bir qərar olduğuna görə, kimin, harada, nə vaxt intihar edə biləcəyini əvvəlcədən bilmək, duymaq mümkün deyil. Düzdür, risk qrupuna aid insanlar var. Ruhi-əsəb sarsıntısı keçirənlər, müəyyən xəstəliyi olanlar, uzun müddət müalicə alanlar və sairə. Amma iki yeniyetmənin intiharı, həm də nəzərə alsaq ki, onlar dərslərini yaxşı oxuyublar, məktəbdə nümunəvi şagird olublar, ilk baxışda problemli uşaq olmayıblar, onların intiharını daxili aləmlərində baş vermiş halla əlaqələndirmək daha doğru yanaşmadır. Hadisə evdə baş verməyib, məktəbdə də olmayıb. Məktəbdən, evdən kənar bir yerdə baş verib. Hesab edirəm ki, son dönəmdəki intihar hadisələrində təqlid xüsusiyyəti daha çoxdur. İki yeniyetmə qızın intiharında da həmçinin. Yeniyetmələr arasında intihar halları niyə baş verir? Hesab edirəm ki, ümumiyyətlə, psixoloji gərginlik çoxdur. Hazırkı yaşayışımız ötən əsrdən fərqlidir. Əvvəllər belə deyirdilər ki, işin var, əmək haqqı alırsan, evin var, ailən var... insana daha nə lazımdır?! İnsana lazım olan daxili məmnunluq hissi, daxili rahatlıqdır. İndi insanlarda daxili məmnunluq hissi azalıb. İnsanlar daxilən rahat deyillər. Gənclər arasında fikir uyğunsuzluğu müşahidə edilir, internetdən asılılıq yüksək həddədir, valideyn nəzarət edə bilmir. Çünki çalışır, bütün günü işləyir, dörd yanımız elektron cihazlardır, hər şey o qədər sürətlə dəyişir ki, insanın psixoloji müvazinətini saxlaması çətinləşir. Ümumiyyətlə, cəmiyyətdə psixo-profilaktik iş aparılmalıdır. Ailələr fərqlidir. Xəstəsi olan, qarşıdurma yaşanan, münaqişəli ailələr də var. İnsanın psixoloji durumuna bir çox faktorlar təsir edə bilir. Məsələlərə fərdi yanaşılması vacib olduğu kimi, kompleks yanaşma da olmalıdır. Nazirlər Kabineti 2020-ci il 30 aprel tarixli qərarı ilə "Ümumtəhsil müəssisələrində psixoloji xidmətin təşkili" qaydaları təsdiqlənib. Burada təkcə uşaqlarla psixoloji iş nəzərdə tutulmur. Təhsil alanlarla yanaşı, təhsil verənlər, rəhbərlik, valideynlər də psixoloji xidmətə cəlb edilməlidir. Valideyn övladını yaxşı tanımalıdır. Övladı ilə maraqlanmalıdır, onun maraq dairəsini bilməli, dünya görüşünə bələd olmalıdır. Uşaq hiss etməlidir və görməlidir ki, valideyni onu mühafizə etmək gücündədir. Bu məsələdə valideyn-məktəb birliyi çox vacibdir.

*"Gənclər arasında fikir uyğunsuzluğu müşahidə edilir, internetdən asılılıq yüksək həddədir, valideyn nəzarət edə bilmir. Çünki çalışır, bütün günü işləyir, dörd yanımız elektron cihazlardır, hər şey o qədər sürətlə dəyişir ki, insanın psixoloji müvazinətini saxlaması çətinləşir"*

**Məlahət Rzayeva**

## Bir gündə 515 yeni yoluxma faktı qeydə alınıb

### Azərbaycanda son sutkada koronavirusdan 7 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 515 yeni yoluxma faktı qeydə alınıb, 201 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 237 775 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 230 116 nəfər müalicə olunaraq sağalıb, 3 257 nəfər vəfat edib, aktiv xəstə sayı 4 402 nəfərdir.

*Ölkədə son sutka ərzində 8462, hazırkı dövrədək isə 2671613 test aparılıb.*

## Bələdçinin başı bədənindən ayrılıb

### Sumqayıtda yük qatarı avtobusla toqquşub



**"Azərbaycan Dəmir Yolları" QSC Sumqayıtda baş verən qatar qəzası ilə bağlı məlumat yayıb.**

Qurumun mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, dünən saat 13:20 radələrində 10 çən vaqonu manevr teplovozu ilə Sumqayıt Çay Stansiyasına gətirilərkən qorunmayan dəmir yolu keçidindən keçməyə cəhd göstərən Maarif Valeh oğlu Lazımovun idarə etdiyi mikroavtobusla toqquşub:

"Hadisə nəticəsində qatar tərtibatçısı Murtuz Aleksey oğlu Abdullayev dünyasını dəyişib. Hadisənin baş vermə səbəbi müvafiq orqanlar aidiyyəti üzrə araşdırılacaq və hüquqi qiymət verəcək".

*Qeyd edək ki, ilkin yayılan məlumatlara görə, Hacı Zeynalabdin Tağıyev qəsəbəsinin girişindən keçən dəmiryolda yük qatarı ilə avtobus toqquşub. Hadisə nəticəsində orada çalışan bələdçi, 1972-ci il təvəllüdlü Abdullayev Murtuz Aleksandroviç faciəvi şəkildə ölüb. Onun başı bədənindən ayrılıb.*

## Ağcabədidə əməliyyat...

### Keçmiş məhkum silahla yaxalandı



**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatların aşkar edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirilib.**

Daxili İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, Baş İdarəyə əvvəllər məhkum olunmuş Ağcabədi rayonunda yaşayan Qorxmaz Quluzadənin qanunsuz olaraq odlu silah-sursat saxlaması barədə əməliyyat məlumatı daxil olub. Baş İdarə və Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən birgə keçirilən təxirəsalınmaz əməliyyat tədbiri nəticəsində həmin şəxs tutulub. Onun yaşadığı evə baxış zamanı 1 ədəd "Kalaşnikov" tipli avtomat, 1 ədəd "Makarov" markalı tapança, həmin silahlara məxsus ümumilikdə 26 ədəd patron və 2 ədəd sandıqça aşkar olunaraq götürülüb.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Qorxmaz Quluzadə barəsində Nərimanov Rayon Məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, istintaq tədbirləri davam etdirilir.

# Sui-qəsdən başqa yol qalmadı

*Ermənistanda Paşinyanı devirə biləcək qüvvə yoxdur*

Ermənistanın Baş Qərargah rəisi Onik Qasparyan tutduğu vəzifədən azad edilib. Çünki Ermənistan Prezidenti Armen Sarkisyan müəyyən edilmiş vaxt ərzində nə onun vəzifədən azad edilməsi barədə fərman imzalayıb, nə də Konstitusiya Məhkəməsinə şikayət edib.



"Prezident Armen Sarkisyanın Silahlı Qüvvələrin Baş Qərargah rəisinin vəzifədən azad edilməsi haqqında fərman layihəsini imzalamaması, həm də eyni zamanda layihəyə Konstitusiya Məhkəməsində etiraz etməməsi faktını əsas götürərək 10 martdan etibarən Silahlı Qüvvələrin Baş Qərargah rəisi Onik Qasparyan tutduğu vəzifədən azad edilir", - deyə Ermənistan hökumətinin mətbuat xidməti N.Paşinyana istinadən xəbər yayıb.

Bu, Ermənistanda prezidenlə baş nazir arasında ziddiyətin olduğunu göstərir. Yəni vəziyyət o həddə çatıb ki, artıq daxildə biri-birlərinə düşmən axtarırlar. Öz əlləri, öz başları... Özləri bilər.

Amma böyük siyasətdə səhvlər bağışlanmır. Yəni ikihakimiyyətliliyin sonu yoxdur. Gec-tez tərəflərdən biri "mat" olacaq.

**Siyasi analitik Turab Rzayev Ermənistandakı vəziyyətlə bağlı fikirlərini "Şərq"ə bildirdi. Onun sözlərinə görə, Paşinyan yalnız bir yolla "taxtdan" gedə bilər:** "Düzdür, iqtidara qarşı bir yox, bir neçə cəbhədə mübarizə aparan etirazçılar var. Məsələn, Koçaryan, Sarkisyan, Manukyan, prezident Armen Sarkisyan və başqaları. Amma son hadisələr də göstərdi ki, Ermənistanda hazırkı baş naziri devirə biləcək siyasi qüvvə yoxdur. Çünki onların mitinqlərə çıxardıqları insanların sayı Paşinyanın tərəfdarlarının heç on faizi deyil. Belə bir şəraitdə daha radikal addımlar atılmalıdır. Məsələn, sui-qəsd. Ola bilsin, narazı siyasi qüvvələrdən biri sui-qəsd yolu ilə baş naziri yox etsin".

*T.Rzayev, həmçinin Rusiyanın məsələyə münasibətindən də danışdı:*

"Kreml Paşinyandan yaxa qurtarmaq üçün tələsir. Çünki Moskva ABŞ-dan hansısa həmlə gəlməzdən əvvəl həm Ermənistana, həm Yaxın Şərqə gedən yola nəzarət etmək istəyir. Bunun üçün isə rəsmi İrəvan birbaşa və tamamilə onun diktəsilə ilə idarə olunmalıdır".

**Kənan**

# Baydenin iti Ağ Evdə qara günlər yaşatdı

"13 yaşlı Çamp sakitdir. Ondan on yaş kiçik olan Major isə aqressivdir"

ABŞ Prezidenti Co Baydenin iti Ağ Evi bir-birinə qatıb. Bu barədə "Şərq" "Milliyet"ə istinadən xəbər verir.



Bayden dövlət başçısı seçildikdən sonra iki cins itini - Çamp və Majoru da bura gətirmişdi. Lakin Major çox keçmədən "dəcəllik" etməyə başlayıb.

Ona görə o, Çampla birlikdə yenidən Baydenin bağ evinə aparılıb. Yerli medianın yazdığına görə 13 yaşlı Çamp sakitdir. Ondan on yaş kiçik olan Major isə aqressivdir. Bu "şıltaq" it Ağ Ev işçilərini görən kimi onlara hürür, üstlərinə qaçır.

*Qeyd edək ki, Bayden 2018-ci ildə Majoru alıb.*

**Kənan**

# Türkiyədə koronaya yoluxanların sayı kəskin artdı

"Ağır xəstələrin sayı 1289-dur"

Türkiyədə koronavirusa yoluxanların sayı yenidən artıb.



Bu barədə "Şərq" "Haber global"a istinadən xəbər verir. Martın 9-na olan statistikaya görə, 13 min 755 nəfərin testi pozitiv çıxıb. 66 nəfər isə həyatını itirib.

*Qeyd edək ki, son 24 saatda 140 min 828 test aparılıb. Ağır xəstələrin sayı isə 1289-dur.*

**Kənan**

# Gürcüstanda etirazlar nəticəsiz qalacaq

İlqar Vəlizadə: "Karantin iğtişaşlara nəzarət etmək üçün hakimiyyətə imkan verir"



Ötən günlərdə bir qrup aktivist və siyasi fəal Gürcüstan parlamentinin önündən Bidzina İvanişvilinin iqamətgahına doğru yürüş edib. İvanişvilinin iqamətgahı qarşısında polislə etirazçılar arasında qarşıdurma yaşanıb.

Etirazçılar iqamətgaha gedən yolda divara "Qatillər" yazmaq istəyib. Polis isə buna icazə verməyib. Sonra polislə etirazçılar arasında qarşıdurma yaşanıb.

Etirazçılar həmçinin Bidzina İvanişvilinin iqamətgahının önünə taxta kukla gətirərək, Qaribaşvilini İvanişvilinin kuklası adlandırıblar.

Xatırladaq ki, etirazçıların tələbləri Nika Melianın azad olunması və növbədənkənar parlament seçkilərinin keçirilməsidir.

Onlar həmçinin TV Pirvelinin yayımladığı səs yazılarında iştirak edənlərə qarşı qanuni əməliyyat keçirilməsini və baş nazirin istefasını tələb ediblər.

Son hadisələr Gürcüstanda vəziyyətin ağır olduğunu göstərir. Xaotik durumun nə vaxtadək davam edəcəyi məlum deyil. Lakin bəzi ekspertlərin fikrincə, hakimiyyət çevrilişi müzakirə mövzusudur.

**Politoloq İlqar Vəlizadə isə "Şərq"ə açıqlamasında səylərin nəticəsiz qalacağını bildirdi:** "Heç nə olmayacaq. Çünki etirazçılar mütəşəkkil deyillər. Düzdür, Saakaşvilinin rəhbərliyi ilə Vahid Hərəkat Partiyası müəyyən addımlar atır. Buna baxmayaraq, həmin partiyanın təsir gücü kifayət qədər deyil.

Düzdür, müxtəlif vaxtlarda siyasi qruplar da partiyaya dəstək verirlər. Fəqət, hansısa nəticə gözləmək doğru olmaz.

Üstəgəl, karantin iğtişaşlara nəzarət etmək üçün hakimiyyətə imkan verir. Yəni şahmat dili ilə desək, "pat" olacaq. İvanişvili isə rəsmi olaraq siyasətdən uzaqlaşıb.

Onun siyasi proseslərə müdaxilə imkanları olsa da, təsir vasitələri əlində deyil. Yəni İvanişvilidən nəsə tələb edə bilməzlər".

**Kənan**

# Donbasda atəş səsləri artır

*Rusiya və Ukrayna arasında qarşıdurma istisna olunmur*

Son günlər Donbasda yenidən müharibənin başlayacağı barədə ardıcıl məlumatlar yayılır. Atəşkəs rejimi də mütəmadi pozulur. Ukrayna silahlı qüvvələrinin komandanlığı separatçıların bölgəni hər gün atəşə tutduqlarını bildirirlər.



Üçtərəfli Təmas Qrupunun Ukraynadan olan üzvü Sergey Qarmaş isə bildirib ki, Rusiya Donbasda hərbi təxribat hazırlayır. Onun sözlərinə görə, "almanlar və fransızlar "Normand" formatı çərçivəsində tərəflərə təklifləri bağlı işi tamamlayıb. Müharibəni bitirmək üçün yol xəritəsi hazırlanıb. İndi Rusiyanın bu addımlara reaksiyasını gözləyirlər: "Normand dördlüyü"ndəki vəziyyətdən narazı qalan və təşəbbüsü itirdiklərini görən Rusiya Donbasda hərbi təxribat hazırlayır ki, bu da rus sülhməramlılarının işğaldakı torpaqlara daxil olmasına səbəb ola bilər".

## Bu, ABŞ və Qərbə Kremlə yönəlik təzyiqləri artırmaq üçün əlavə səbəblər verə bilər

Xatırladaq ki, bir müddət əvvəl Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov Ukraynadakı münaqişənin təhlükəli həddə çatdığını söyləmişdi. Bildirmişdi ki, Moskva Ukrayna silahlı qüvvələrinin və başqa silahlı birləşmələrin Donbas ərazisini getdikcə daha çox intensiv atəşə tutmasından narahatdır. Peskovun sözlərinə görə, "Normand dördlüyü" adlanan qrup öz nüfuzundan istifadə edərək Ukraynada "vətəndaş müharibəsinin" yenidən qızışmaması üçün əlindən gələni etməlidir". Putinin sözçüsü vurğulayıb ki, Ukraynanın şərqində yaranmış vəziyyət "təhlükəli həddə" yaxınlaşıb. Rəsmi Kiyev isə Peskovdan fərqli olaraq əmindir ki, Donbasda "vətəndaş müharibəsi" yox, Moskvanın başlatdığı separatçı münaqişə davam edir: "Donbasda vəziyyətin gərginləşməsinə başlıca səbəbkar Rusiyadır".

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında vurğulayıb ki, son vaxtlar Rusiya üçün ağır dövr başlayıb. ABŞ və Qərb Kremli Rusiyanın sərhədləri içərisinə sıxışdırmağa çalışır.** Ona görə də hazırda Rusiya hər tərəfdən ciddi şəkildə təzyiqlərlə üzləşmiş durumdadır. Ekspertin sözlərinə görə, Rusiya ilə bağlı bu vəziyyətin hələ uzun müddət davam etmə ehtimalı böyükdür: "Rusiya-Ukrayna arasında qarşıdurma mühitinin yaranması, daha da gərginləşməsi qətiyyən istisna deyil. Hazırda belə bir qarşıdurmanın olması ABŞ və Qərbin maraqlarına tamamilə cavab verir. Məsələ ondadır ki, Rusiya ilə Ukrayna arasında qarşıdurma ABŞ və Qərbə Kremlə yönəlik təzyiqləri artırmaq üçün əlavə səbəblər verə bilər. Çünki Rusiya bir tərəfdən Ukrayna ərazisi olan Krımı ilhaq edib. Digər tərəfdən isə Ukraynanın cənub-şərqində Rusiyanın təsir dairəsində olan separatçılar əlavə münaqişə ocaqları yaradıblar. Həmin bölgədəki separatçıların Rusiyanın səhnə arxası yardımları ilə silahlanıb, Ukrayna dövlətinə müqavimət göstərdikləri heç kəsə sirr deyil. Bu baxımdan, münaqişə yenidən bərpa olunarsa, Rusiyanın da prosesə hansısa formada cəlb olunacağı istisna deyil".

**Analitikin fikrincə, əslində, məhz belə bir situasiya ABŞ və Qərb üçün ən əlverişli təzyiq bəhanələri yarada bilər:** "Amerika və Qərb Rusiyaya qarşı yeni sanksiyaların tətbiqinə xüsusi həvəs göstərir. Ukraynanın ərazi bütövlüyünə qəsd ittihamı Rusiya üçün olduqca ciddi beynəlxalq sanksiyalara yol aça bilər. Təbii ki, rəsmi Kiyev də bu faktorları nəzərə alır. Üstəlik, Vaşinqton və Qərbdən siyasi və hərbi-texniki dəstək ala biləcəyinə arxayındır. Digər tərəfdən, Ukrayna ordusu son illərdə öz hərbi-texniki bazasını və döyüş hazırlığı səviyyəsini gücləndirib. Nəhayət, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini hərbi yolla həll etməsi Ukraynanı ciddi şəkildə həvəsləndirib. Türkiyədən "Bayraktar TB2" PUA-ları alan Ukrayna bu dəfə savaşdan qələbə və ərazi bütövlüyünü bərpa etməklə çıxa biləcəyinə əmindir. Bu baxımdan, Ukraynanın cənub-şərqində silahlı münaqişənin yenidən bərpa olunma ehtimalı kifayət qədər yüksəkdir".

**İsmayıl Qocayev**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İrəvan məcburdur...

## *Zəngəzur dəhlizinin işə düşməsi Ermənistan üçün xilas yoludur*

Ermənistanda müharibə sonrası yaşanan dərin siyasi qütbləşmə erməni cəmiyyətini yeganə doğru seçimi etməyə imkan vermir. Seçim isə Türkiyə və Azərbaycanla normal əməkdaşlıq qurmaq, qonşularla iqtisadi tərəqqi yoluna qədəm qoymaqdan ibarətdir.

Təəssüf ki, buna xaricdəki erməni lobbisinin həvəsləndirdiyi radikal müxalifət imkan vermir. Hətta bu seçimi Ermənistan üçün "xəyanət" sayanlar da var. Halbuki, ötən 30 ilin acı təcrübəsi tam əksini göstərir. Ermənistandakı hazırkı fəlakətli durumun əsas səbəbi işğalçı, avantürist xarici siyasət nəticəsində sərhədlərin bağlı qalması, ölkənin təcrid olunmasıdır. Keçmişdən ibrət almayan erməni siyasətçilər arasında yenidən bu təhlükəli yolu addımlamaq istəyənlər önə çıxmaqdadır. Xüsusən, müxalif dairələrin və onlara yaxın media orqanlarının, sosial şəbəkələrin daim gündəmə daşıdığı və ermənilər üçün "faciə" kimi gördükləri əsas məsələ Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirəcək quru yolunun - Zəngəzur dəhlizinin açılmasıdır. Erməni müxaliflər mühüm layihəni Ermənistanın "parçalanması", bütövlükdə Zəngəzur bölgəsinin Azərbaycanın nəzarətinə keçməsi kimi ictimaiyyətə təqdim edirlər. Uydurma və əsassız iddialarla erməniləri ayağa qaldırmağa çalışırlar. Lakin dəfələrlə bəyan edildiyi kimi Ermənistanın bütün cəhdlərinə rəğmən, 10 noyabr və 11 yanvar üçtərəfli anlaşmalarının hər müddəası gec-tez reallaşacaq.

**Prezident İlham Əliyev YAP-ın VII qurultayında çıxışı zamanı bu məsələyə xüsusilə toxunub. Dövlət başçısı vurğulayıb ki, rəsmi Bakı əməkdaşlığa hər zaman hazır olub:** "Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri bir neçə dəfə görüşüblər. Əməkdaşlıq barəsində danışıblar. Biz əməkdaşlığın əleyhinəyikmi? Yox! İndi Ermənistan əməkdaşlıqdan boyun qaçırır. Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Onları məcbur edəcəyik".

Ölkə rəhbəri martın 9-da Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də bu məqama diqqət yönəldib. Prezident bəyan edib ki, artıq "Dağlıq Qarabağ münaqişəsi" tarixdə qaldı, həll edildi və bitdi. İndi gələcəyə baxmalıyıq, bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik: "Xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq".

*Bu arada Ermənistanın sabiq xarici işlər naziri, Çiçəklənən Ermənistan Partiyasının parlament fraksiyasının deputatı Vartan Oskanyan bu günlərdə bəyan edib ki, Ermənistanda daxili siyasi və sosial böhran davam edərsə, İrəvan Sünik (Zəngəzur) ilə tam vidalaşmalı olacaq:* "Biz bütün bu əraziləri Azərbaycanın nəzarətinə qaytarmağa borclu olacağıq". Erməni şərhçi Ruben Danielyan da Azərbaycanın Zəngəzuru güc yolu ilə yox, iqtisadi yolla ələ alacağını söyləyib. Bildirib ki, əvvəl nəqliyyat-kommunikasiya əlaqələri qurulacaq, Azərbaycan və türk avtomobilləri yollardan və dayanacaqlardan istifadə edəcəklər: "Camaat buna öyrəşəcək, onlar yol və yolkənarı infrastrukturun yaxşılaşdırılması ilə məşğul olacaqlar. İnsanlar türklərə və azərbaycanlılara qonşu kimi yanaşacaq. Sonra yolların keçdiyi ərazilərdə infrastrukturun müasirləşdirilməsi üçün Azərbaycan-Türkiyə investisiyası qoyulacaq. Ardınca türklərin özü gələcək, tədricən Zəngəzur şəhərlərində azərbaycanlıların sayı artacaq. İqtisadi əlaqələr genişləndikcə, Azərbaycan və Türkiyə pasportu bölgəyə ayaq açacaq, bu pasportları daşıyanlara əlavə güzəştlər ediləcək. Türklərin sayı əhalinin 20-30 faizinə çatanda isə onlar administrasiyaya ayaq açacaqlar. Beləliklə, Zəngəzur Azərbaycan bölgəsi, yaxud Bakı və Ankaranın təsirində olan əraziyə çevriləcək. Bu, qaçılmazdır".

**Bu məsələyə problem yaranarsa üçtərəfli bəyanata zəmanət verən dövlətin nüfuzuna ciddi şəkildə zərər dəyə bilər**

*Erməni iqtisadçı Aşot Tavadyan isə deyib ki, regionda kommunikasiyaların açılmasını tək bir yox, bütün tərəflər aparmalıdırlar.* O iddia edib ki, Azərbaycanın Mehri koridorunun açılmasında israr edir, amma Ağdərə-Vardenis yolunu bağlayır.

Tavadyan bir sıra marşrutların, xüsusilə Mehridən açılacaq dəhlizin Ermənistana sərf etdiyini deyib: "Bu dəhliz sayəsində Naxçıvandan Ermənistanın mərkəzinə yol olacaq, beləliklə də İrəvanın cənub və mərkəzi rayonları ilə əlaqəsi asanlaşacaq.

Hazırda Tiflis və ya Gürcüstanın Qara dəniz limanlarından İrəvana yük daşınması üçün çoxlu resurs sərf edilir. Naxçıvan dəmir yolunun açılması ilə Rusiya və Ermənistan arasında daha çox yük daşınacaq. Sovetlər dönəmində bu dəmir yolu Rusiya ilə Cənubi Qafqaz respublikaları arasında əsas yük magistralı idi. Ermənistan və Rusiya arasında əlaqə İcevandan Qazaxa açılacaq dəmir yolu sayəsində də güclənə bilər. Ona görə də bu məsələlər kompleks həll edilməlidir".

**Tanınmış rusiyalı tarixçi, hərbi ekspert Oleq Kuznetsov da bildirib ki, son zamanlar Zəngəzurun qaytarılması mövzusu erməni siyasətində çox fəal şəkildə müzakirə olunur:** "Gəlin bəzi məqamlara diqqət yetirək. Martın 5-də Yerevanda Ermənistanın İnsan Hüquqları üzrə Müvəkkili Arman Totoyan mətbuat konfransı keçirdi. Onun bu konfrasda dedikləri böyük səs-küyə səbəb oldu. Totoyan bildirdi ki, Zəngəzurda və ümumiyyətlə bütün perimetrdə sərhədlərin delimitasiyası prosesi təcili olaraq dayandırılmalıdır. Çünki artıq Yerevanda hamı başa düşür ki, bu proseslər hələ sovet dövründə Ermənistanın "sürünən təcavüz" taktikası ilə əldə etdiyi bütün "erməni ərazilərinin" itirilməsinə səbəb olacaq". Onun sözlərinə görə, sözsüz ki, söhbət Azərbaycanın Ermənistan ərazisindəki eksklavlarından gedir: "Lakin Totoyan Qazax və ya Naxçıvan haqqında danışmır. Əsas müzakirələr Zəngəzur barəsində gedir. Bu o deməkdir ki, Zəngəzurun Azərbaycan torpağı olması faktı erməni xalqının özünün də beynində mövcuddur. Hətta bu fikrin daşıyıcıları Ermənistanda durmadan artır. Artıq bəzi ermənilər özlərində güc tapıb, əsas fobiyalarını kədərli səslə səsləndirməyə qərar verib. Onlar Ermənistanda nəinki iqtisadi, həm də siyasi kollapsın qaçılmaz olduğunu, 1921-ci il Qars müqaviləsinə uyğun olan sərhədlərə qayıtmalı olduqlarını hiss edirlər. Erməni cəmiyyəti getdikcə daha aydın başa düşür ki, əgər o, ədalət qanunları ilə yaşamayacaqsa, onda o, Azərbaycanın müəyyən etdiyi güc qaydalarına uyğun yaşamalı olacaq".

Rusiyanın Xalq artisti, kinorejissor, ictimai xadim Karen Şahnazarov da deyib ki, revanş xəyalları tamamilə boş məşğuliyyətdir. Onun sözlərinə görə, erməni xalqı müharibədəki məğlubiyyəti ağrılı şəkildə qəbul etdi, bu, başadüşüləndir. Ancaq buna dözmək lazımdır: "Cəmiyyətin bir hissəsi revanşist əhval-ruhiyyədədir. "Gücümüzü toplayıb yeni müharibəyə başlayacağıq" düşüncəsindədirlər. Fikrimcə, bu, tamamilə çıxılmaz bir yoldur. Ancaq ermənilərin əksəriyyəti buna meyilli deyil. Əməkdaşlıq üçün imkan tapmaq lazımdır. Ümumilikdə 10 noyabr bəyanatını Prezident İlham Əliyevin böyük xidməti hesab edirəm. Axı Bakının əlində çoxlu "kartlar" var idi, lakin ən müdrik və düzgün seçim edildi".

**Politoloq Elçin Mirzəbəyli "Şərq"ə açıqlamasında deyib ki, Zəngəzur dəhlizi ilə bağlı müddəanın 10 noyabr üçtərəfli bəyanatına salınması onun icrasını Ermənistan üçün məcburi edir.** Siyasi şərhçinin sözlərinə görə, Ermənistanda müxalif siyasətçilərin nə deməsindən asılı olmayaraq, razılaşmalarda yer alan bütün müddəalar həyata keçirilməlidir. Əks təqdirdə adekvat tədbirlərin görüləcəyinə şübhə yoxdur: "Bu tədbirlər sayəsində isə Ermənistanın onsuz da ağır olan durumu indikindən qat-qat ağır vəziyyətə düşəcək. Digər tərəfdən isə üçtərəfli bəyanata zəmanət verən dövlətin nüfuzuna ciddi şəkildə zərər dəyə bilər. Sirr deyil ki, bu layihənin həyata keçməsi birbaşa Rusiyanın və Kreml rəhbərinin nüfuz məsələsidir. Zəngəzur məsələsi ilə bağlı Ermənistanda müşahidə edilən yanaşmalar bu xalqın uzun illər ərzində zəhərlənmiş təfəkküründən qaynaqlanır. Azərbaycan və Türkiyə hansı addımları atırsa, hətta Ermənistanın mənafeyinə xidmət etmiş olsa belə ermənilərin gözündə "təhlükəli plan" kimi dəyərləndirilir. Əslində regiona kənardan gətirilmiş bu toplum bölgədə mövcud olduqları zaman kəsiyində yalnız bir məqsədə xidmət ediblər. O məqsəd də qonşu dövlətlərə və xalqlara qarşı məkirli niyyətlərini həyata keçirmək olub. Xəstə təfəkkürə malik ermənilər yenə eyni qaydada dəyişməz psixologiyalarından çıxış edərək, regional layihələrin Ermənistana qarşı olacağını iddia edirlər. Azərbaycan bütün dövlətlərin beynəlxalq hüquq tərəfindən tanınmış sərhədlərinə sayğı ilə yanaşır. Eyni yanaşmanı da Yerevandan tələb edir. Dəfələrlə bəyan etmişik ki, tarixi reallıqların necə olmasından asılı olmayaraq, bütün dövlətlərin konkret sərhədləri var. Ölkəmiz sərhədlərin toxunulmazlığı prinsipinə hər zaman hörmətlə yanaşıb. Əlbəttə ki, öz torpaqlarımızın bir qarışını belə heç kimə güzəştə getməmək şərti ilə".

**E.Mirzəbəyli vurğulayıb ki, Zəngəzur dəhlizinin işə düşməsi Ermənistan üçün xilas yoludur:** "Ermənistan siyasətçilərinin bədbəxtçiliyi odur ki, əsl qurtuluş yolu olan layihələri özlərinə "təhlükə" bilirlər. Həqiqi təhlükəli məqamları isə özləri üçün "xilas yolu" görürlər. Uzun illərdən bəri Azərbaycanın yürütdüyü siyasət nəticəsində regionda elə bir situasiya yaranıb ki, ölkəmizin bilavasitə maraqları, mövqeləri nəzərə alınmadan hansısa addımın atılması mümkün deyil. Ermənistan indiki şəraitdə bu və ya digər formada onu dəstəkləyən, himayə edən ölkələrin son nəticədə Yerevanın imdadına yetmədiyini dərk edərək doğru seçim etməlidir. Zəngəzur dəhlizi Ermənistan üçün nəfəs yoludur, beynəlxalq aləmə çıxış deməkdir. Regionda baş verən iqtisadi proseslərdə aktiv iştirakın təmin olunmasıdır. Burada söhbət təkcə Türkiyə-Azərbaycan əlaqələrindən getmir. Zəngəzur dəhlizi bütün region dövlətləri üçün əlverişli logistik imkanlar yaradacaq. İndiki şəraitdə buna ən çox ehtiyac duyan məhz Ermənistandır. Çünki Azərbaycandan fərqli olaraq Ermənistanın heç bir alternativi yoxdur. Erməni müxalifətinin buna qarşı çıxması xəstə təfəkkürün məhsuludur".

*Analitikə görə, 10 noyabr anlaşmasında yer alan müddəaların mümkün qədər tez zamanda reallaşması nəzərdə tutulub:* "Təbii ki, regional layihələrin həyata keçirilməsində əsas amillərdən biri sabitliyin olmasıdır. Ermənistanda sabit siyasi hakimiyyət mövcud olmalıdır ki, iqtisadi layihələrin reallaşması üçün uyğun zəmin yaradılsın. Düşünmürəm ki, Ermənistandakı qarışıqlıq nəzərdə tutulan layihələrin həyata keçirilməsinə uzunmüddətli maneçilik törədəcək. Çox güman, 2021-ci ilin sonunadək Ermənistandakı siyasi proseslərə aydınlıq gətiriləcək və öz öhdəliklərini dərk edən bir siyasi hakimiyyət formalaşacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Müəllimimə son vəzifəm

## Elmin sönən işığı, professor Abdulla Abasov alim, insan üçün gözəl ömür və ölüm yaşadı

*Azərbaycandan ayrıldığım zamandan bəri sırf mətbuatda yazı ilə çıxış etmək üçün bir "Word" səhifəsi açdığımı çox xatırlamıram. Bunu sonuncu dəfə Əhməd bəy Ağaoğlunun vəfatının ildönümü ilə bağlı etmişdim yəqin ki. O da bir il bundan öncə. Sözün düzü, bu səhifəni bu məqsədlə açmaq da istəməzdim, amma düşündüm ki, bir tələbə olaraq son vəzifəmi yerinə yetirməliyəm. Bəli, Abdulla müəllim üçün son vəzifə...*

Fevralın 23-də dəyərli alim, gerçək pedaqoq, Azərbaycan ədəbiyyatının ciddi araşdırmaçısı, Bakı Dövlət Universiteti Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Abdulla Abasov vəfat etdi. Bəlkə də bu aralar ölüm xəbərlərinə çox öyrəşdiyimiz bir zamandır, lakin fərq etmir, nə qədər adiləşsə də, bəzi ölümlərin kədər qaynağı təkcə həyatdan gedilməsi deyil. Bu insan alimdirsə və ən önəmlisi, gerçək alimdirsə, o zaman üzülmək üçün çox başqa səbəblər ortaya çıxır.

Abdulla məllim mənə 2014-cü ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində bakalavr təhsili alarkən, təhsilimin I kursunda "Azərbaycan ədəbiyyatı - 2" fənninin "Müasir Azərbaycan ədəbiyyatı" bölümünün mühazirələrini deyib. Abdulla müəllim üçün "mühazirə deyib" ifadəsini işlətmək, məncə bir az da düzgün deyil. Professor bu mühazirələri yaşayırdı. O, müasir Azərbaycan ədəbiyyatı araşdırmaçısı, ya da müəllimi olmaqdan əlavə, müasir Azərbaycan ədəbiyyatı araşdırmalarının özü, canlı arxivi idi. Yaşlı idi Abdulla müəllim bizə dərs deyəndə, bəlkə də 80-i haqlamışdı. Amma bir dəfə də olsun onun oturaraq dərs keçdiyini görmədim, hər zaman ayaq üstə, dərsi özünəməxsus xitabla danışardı. Bir də əzbər şeirləri. Azərbaycan ədəbiyyatından nümunələr verərkən, elə mühazirə deyərkən də nə bir kitaba, nə də bir konspektə baxardı. Şeirləri əzbər oxuyar, əsərlərin mövzusunu heç yerə baxmadan danışardı bizim üçün. Əlavə müzakirələr açmaz, boş söhbətlər etməz, yalnızca elm-ədəbiyyat olardı mövzusu. Düşünürsünüz ki, belə olmalı idi onsuz da, niyə bunu çaşqınlıqla qarşılayırıq? Məsələ müasir Azərbaycan elmi, alimliyi və pedaqoqluğudursa, bəli, çaşqınlıqla danışırıq, çünki onların sayı çox azdır. Fakültə cədvəllərində adının qarşısına "prof." yazılan saysız-hesabsız insanlar var. Amma nə professor, nə alim?! Ən fərqli və saxta yollarla adının qarşısına bu statusu yazdıra bilən hər kəs Abdulla müəllimlə eynidirmi? Olmaz, ola bilməz. Odur ki Abdulla Abasov Azərbaycanın, Bakı Dövlət Universitetinin, o fakültələr və kafedraların görüb-tanıya biləcəyi nadir gerçək alimlərdən idi.

Abdulla müəllimin vəfatını öyrənərkən həm də fakültənin ondan dərs almamış, bu fürsəti əldə etməmiş tələbələrinin adına üzüldüm. Çox təəssüf ki, bu gün gənclərin inkişafında heç bir rolu olmayacaq insanlarla, sırf biriləri öz nüfuzlarını möhkəmləndirə bilsin deyə anlamsız görüşlər keçirilir. Lakin Abdulla müəllim o gənclərə tanıdılmır. Məsələn, onun dərslərə girmədiyi ingilis bölməsi tələbələri belə bir professorla tanış ola bilmədikləri üçün nə qədər şey itiriblər, bunu hər halda Abdulla müəllimin tələbəsi olmuş insanlar bilərlər.



Abdulla Abasov və onun qızı, eyni zamanda müəllimim olmuş, daha sonra mənim ən yaxın insanlarımdan birinə, ən səmimi dəstəkçimə çevrilmiş Sevinc Abasova ilə 2014-cü ildən bu ilə qədər də əlaqə saxlayırdıq. Ən çox Sevinc xanımla ünsiyyətdə olurduq, hər söhbətimizdə Abdulla müəllimə xüsusi salam göndərirdim, heç gözləmirdim bu son xəbəri, aldığımda heç inana da bilmədim. Sosial medianın bu gün ictimai rəyi, gerçək qavrayışı göstərdiyinə inanırıq. İstər universitetin rəsmi səhifəsi, istərsə də digər paylaşımlardan heç birində mənfi bir rəyə rastlamamaq, bəlkə də budur bir insan üçün ən gözəl ölüm. Onu tanıyanlar həm bir şəxsiyyət, həm müəllim, həm də alim kimi ölümünə üzüldülər. Təbii ki anlayanlar, bilənlər, fərqində və dəyərində olanlar.

"Hər ölən insan yaşayanların bir parçasını da öldürmüş olur" - deyə bir ifadə var. Mütləqdir ki, Abdulla müəllimin ölümünə ən çox onun ailə üzvləri, övladları, nəvələri üzülüblər. Lakin Abdulla Abasov yalnızca ən yaxınında olanların bir parçasını öldürmüş olmadı, Azərbaycan elmi, ədəbiyyat araşdırmaları, tarixi, pedaqogikasının önəmli bir parçasını özü ilə apardı. Gerçək alim ölümünə bu qədər çox pis olmağımızın, bunu dərk etməyimizin əsas səbəblərindən biri də məhz onların davamçılarının varlığı problemidir. Bu irsi daşımalı olanlar, irsə varis olmağı bacarmaları gərəkənlər neçə nəfərdirlər? Var olanlara da bu irsi davam etdirmək üçün nə dərəcədə imkan yaradılacaq? Onlara necə dəyər veriləcək? Onlar da saxtakar professorların həyatda özünə "yer tutmaq" naminə alətları olub getdikdən sonra Abdulla Abasov elmini kimlər yaşadacaqlar? Bunlar böyük suallardır...

Bu gün Abdulla müəllimin yetişdirdiyi, dərs dediyi tələbələrin sayı neçə yüzü aşıb, bilmək olmaz. Bu şansı, dəyəri anlayan-anlamayan hamısı şanslıdırlar, sadəcə bəziləri duyur, bəziləri isə duymurlar. İnsanlar digərləri tərəfindən fərqli cür qiymətləndirilir, amma əsas olan insanın özünün gördüyü işlər və özünü necə dəyərləndirdiyidir, başqalarının necə dəyərləndirməsi onun gerçək dəyərindən heç nəyi əskiltmir və ya artırmır. Abdulla müəllim də öz gördüyü işlərlə dəyərini biçmiş bir şəxsiyyətdir.

Bu yazının yazıldığı gün professor Abdulla Abasov aramızda yoxdur, amma onun bizə və Azərbaycan elminə öyrətdikləri var: onlar məhz biz özümüzük, biz onun əsərlərinin bir parçasıyıq. Özü soyuq, elmi hüzuru isti olan Ərzurum şəhərindən buruq bir hissə ruhunuza ithaf edirəm bu cümləni, gerçək professor. Ruhunuz hüzur içində, irsiniz nəsildən-nəsilə daşınan olsun! Allah rəhmət eləsin!

**Nurlan Ağa,**
**Ərzurum Atatürk Universiteti Sosial Elmlər İnstitutunun doktorantı**

## Pandemiya dövründə maarifləndirmə işi zəif idi

### "Ona görə bu məsələyə yenidən qayıtmaq lazımdır"



*Karantin qaydalarının yenidən sərtləşdirilməsi, yaxud da yumşaldılması ilə bağlı məsələlər müzakirə olunur.*

Ən əsas da rayonlara gediş-gəlişin açılması maraq doğurur. Deputat Fazil Mustafa da Milli Məclisin iclasında bu mövzu haqqında danışıb. Millət vəkili bildirib ki, sağlamlıq üçün epidemioloji vəziyyəti nəzərətə götürmək olar: "Lakin rayonlara gediş-gəlişi bağlamaq doğru deyil. Bu qadağa aradan götürülsə, şəhərdə tıxac da azalar. Hesab edirəm ki, vaksinasiya gücləndirilməlidir".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla məsələni "Şərq"ə dəyərləndirərkən deputatın fikirlərini təsdiqləyib:** "Hazırda danışılır ki, hansısa qapanmalar ola bilər. Lakin bunun əleyhinəyəm. İndiki epidemioloji vəziyyətdə karantin qaydalarının sərtləşdirilməsinə ehtiyac yoxdur. Hesab edirəm ki, bayram günlərində qadağaların tətbiq olunması insanların psixologiyasına mənfi təsir göstərə bilər. İkinci bir tərəfdən vətəndaşlar özləri də məsuliyyətli olmalıdırlar. Qapalı məkanda karantin qaydalarına ciddi əməl etməlidirlər. Maarifləndirmə işləri görülməlidir. Əhalinin qaydalara riayət etməsinə ciddi nəzarət olunmalıdır. Bu sahədə xeyli boşluqlar var. Pandemiya dövründə maarifləndirmə işi zəif idi. Ona görə bu məsələyə yenidən qayıtmaq lazımdır. Artıq Avropada 3-cü dalğadan söhbət gedir. Azərbaycanda vəziyyətin necə olacağını bilmirik".

**Samirə Ərəblinski**

## İctimai nəqliyyatda bahalaşma qaçılmaz olacaq

### Çünki bütün xərcləri sahibkar öz üzərinə götürə bilməz




*Son günlər ictimai nəqliyyatda gediş haqqında artım olduğuna dair müəyyən iddialar səslənirdi. Xüsusilə kartsız fəaliyyət göstərən avtobuslarda süni qiymət artımı müşahidə edilir.*

Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) daşıyıcı şirkət rəhbərlərinə və ictimai nəqliyyatı idarə edən sürücülərə xəbərdarlıq edib. DANX-dən verilən məlumata görə, xəbərdarlıqda bildirilir ki, ictimai nəqliyyatda süni qiymət artımına yol verildiyi halda daşıyıcı şirkətlərə qarşı Xidmət tərəfindən sərt tədbirlər görüləcək.

Həmçinin qeyd olunub ki, vətəndaşlar paytaxt istisna olmaqla, respublikanın digər regionlarında şəhərdaxili, rayondaxili və Bakı-Sumqayıt istiqamətində hərəkət edən avtobuslarda süni qiymət artımı ilə qarşılaşdıqları zaman 012-566-52-58 nömrəli "Çağrı Mərkəzi" ilə əlaqə saxlaya bilərlər: "Bu günə qədər süni qiymət artımı ilə bağlı daxil olan şikayətlərin 96 faizinin müntəzəm marşrut xətlərinə aid olmadığı aşkarlanıb. Müntəzəm marşrut xətlərində rast gəlinən süni qiymət artımının isə sürücünün fərdi təşəbbüsü olduğu müəyyənləşib.

Bununla bağlı müvafiq daşıyıcı şirkətə məlumat verilərək problem həllini tapıb, gediş haqqı əvvəlki vəziyyətinə qaytarılıb".

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında əvvəl-axır ictimai nəqliyyatda gediş haqlarında bahalaşma olacağını söyləyib.**

İqtisadçı bunu ilin əvvəlində dizel yanacağında 33 faiz artımın baş verməsi ilə əlaqələndirir: "Eyni zamanda A92 markalı benzinin qiymətində də bahalaşma oldu. Yəni istənilən halda ictimai nəqliyyatda dizel, bəzi hallarda isə A92 markalı yanacaqdan istifadə olunur. Dizel yanacağının 33 faiz artmasına dair Nazirlər Kabineti rəsmisinin belə açıqlaması oldu ki, müəyyən subsidiyalar olacaq. Lakin bununla bağlı sonralar əlavə qərar verilmədi. Ona görə də 33 faiz qiymət artımı bu gün nəqliyyat sektorunun üzərindədir".

*Ekspert vurğulayıb ki, ictimai nəqliyyatların əksəriyyəti özəl şirkətlərə aiddir:* "Düşünürəm ki, istənilən halda gediş haqqında bahalaşma olacaq. Çünki dizelin bahalaşmasına aid olan xərc kiminsə üzərinə düşməlidir. İnanmıram ki, sahibkar bütün xərcləri öz üzərinə götürsün. Ona görə də avtobuslarda gediş haqqının bahalaşmasına zəmin yaranıb. Qiymət artımınnın qarşısını almaq üçün yalnız hökumət bu sahəni datasiyasına götürə bilər".

**Yeganə Bayramova**

# Yenə köhnə dərd, dərmanı da yoxdur

## Dönər biznesi əməlli-başlı insanların sağlamlığını təhlükə altına alıb

*"Heyvan xəstəlikləri məhv olmayan ətlər şişə taxılır və isindikcə ətin suyu tökülür. Bütün baytarlıq dərmanlarının qalıqları və heyvani xəstəliklər həmin suda olur. Dönərçi isə doğradığı əti həmin su ilə qarışdırıb istehlakçılara verir"*



Paytaxt küçələrində addımbaşı dönərxanalara rast gəlirik. Bu obyektlər daha çox insanların sıx olduğu yerlərdə, əsasən metro stansiyalarının ətrafında fəaliyyət göstərir. "Fast-food" yeməklərinin satışı üçün bu yerləri əlverişli məkan hesab etmək olar. Ayaqüstü və tez hazırlanan bu qidalara tələbatın çox olduğu da bəllidir. Lakin bütün dönərxana obyektlərindəki mövcud durum heç də xoşagələn deyil. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) davamlı olaraq dönərxanalarda monitorinqlər keçirir. Bu yoxlamalar zamanı neqativ məqamlar da üzə çıxır: Mənşəyi məlum olmayan ətlər, sanitar-gigiyena qaydalarına riayət edilməməsi və.s. Agentlik tərəfindən müəyyən tədbirlər görülsə də, yenə standartlara cavab verməyən dönərxanalara rast gəlirik. **"Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov ölkəmizdəki dönərxanaların son durumu ilə bağlı "Şərq"ə danışıb. Onun sözlərinə görə, dönərxanalarda vəziyyət getdikcə müsbətə doğru dəyişir:** "Lakin bu dəyişikliyin sürəti çox aşağıdır. AQTA mümkün qədər işlər görür ki, vəziyyət dəyişsin. Amma hökumətin biznes qurmaq üçün yaratdığı toxunulmazlıq siyasəti var. Bu siyasət gətirib o yerə çıxarıb ki, bütün biznes qurumları, o cümlədən dönər biznesi ilə məşğul olanlarda ərköyünlük obrazı yaranıb. Onlar dövlətin istehlakçı hüquqlarına dair qanunlarını inkar edirlər. Dövlətin yaratdığı şəraitdən sui-istifadə edərək istehlakçıların hüquqlarını pozurlar".

*E.Hüseynov qeyd edib ki, mənşəyi məlum olmayan ətlərdən dönər hazırlanması davam edir:* "Bu yaxınlarda DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi yenə də leş ətinin satıldığını ifşa etdi. Həmin ətlər dönərxanalara verilir. Düşünürəm ki, vəziyyəti kökündən dəyişmək üçün ciddi işlər görülməlidir. Bu ciddi işdə ictimaiyyət, alıcılar və digər şəxslər birlik göstərib çalışmalıdır. Hələ 10 il öncə dövlət orqanları dönərxanaların standartını hazırlayıb. Dönərləri təmiz və təhlükəsiz ətdən hazırlayıb, şişə taxıb və onu "-40" dərəcədə şok dondurmadan keçirən müəssisə müəyyən olunub.

Sadəcə, 2 müəssisədə bu avadanlıq var: "Səhliyyalı" firması və "AzProtein Foods" MMC. Bu iki şirkətdə avadanlıq var, dövlət həmin firmalara hətta toyuq dönəri hazırlamağa icazə verir. Lakin dönərxanaların heç 1 faizi də bu firmadan ət almır və naməlum ətlərdən istifadə edirlər.

İstehsalçılar elə yerlərdən ət almalıdırlar ki, həmin ətlər qanuni olsun. Heyvan xəstəlikləri məhv olmayan ətlər şişə taxılır və isindikcə ətin suyu tökülür. Bütün baytarlıq dərmanlarının qalıqları və heyvani xəstəliklər həmin suda olur. Dönərçi isə doğradığı əti həmin su ilə qarışdırıb istehlakçılara verir. Ona görə də "-40" dərəcə şok dondurucu avadanlıq mühüm əhəmiyyət kəsb edir. Fikrimcə, AQTA elə nümunəvi dönərxanalar yaratmalıdır ki, digər müəssisələr də onlara baxıb standartlara uyğun fəaliyyət göstərsinlər. Lakin bu sahədə problem yaşanmaqda davam edir".

**Yeganə Bayramova**

---

# Dövlət sifarişli plan yerlərinin sayı artırılıb

## Azərbaycanda təhsilin əlçatanlığı bir çox ölkələrə nisbətən daha yaxşıdır

Nazirlər Kabinetinin 2020-ci il üzrə hesabatında bildirilib ki, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı təkliflər hazırlanan zaman dövlət sifarişinin artırılması məsələsinə diqqət çoxaldılır.

2020-ci ildə əvvəlki ilə nisbətən tələbə qəbulu proqnozu 2,3 faiz, dövlət sifarişi isə 7,13 faiz artıb. Proqnoz yerlərin 84,5 faizi dövlət, 15,5 faizi isə özəl ali təhsil müəssisələrinin payına düşüb. 2020-ci ildə ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin 50,1 faizi dövlət sifarişi ilə təhsil almaq hüququnu əldə ediblər. 2020-2021-ci tədris ili üzrə dövlət sifarişi əsasında qəbul planı cəmi 2601 yer (bakalavr - 2207 yer, magistratura - 208 yer, rezidentura - 186) və ya 10,8 faizə yaxın artırılıb.

**"Şərq"lə həmsöhbət olan təhsil-eksperti Kamran Əsədov da son illər ali təhsil müəssisələrinə qəbul olanların sayının artdığını söyləyib:** "Həm də dövlət sifarişli plan yerlərinin sayında da kəskin dəyişim var. Azərbaycanda 2010-ci ildə 29 min plan yeri vardısa, indi 44 mindir. Bu, kifayət qədər uğurlu rəqəmdir. Eyni zamanda 2018-ci ildə ali təhsil müəssisələrinə 43000 plan yerinin 12000-i dövlət sifarişli idi. Ötən il isə ümumi plan yerinin 50 faizi ödənişsiz oldu. Bu gün ali təhsil müəssiələrində hər iki tələbədən biri dövlət sifarişli təhsil alır. Həm də Azərbaycanda təhsilin əlçatanlığı bir çox ölkələrə nisbətən daha yaxşıdır. Beləliklə təhsilin əhatə dairəsi də genişlənir. Bunun sayəsində əmək bazarında daha yüksək hazırlıqlı, bacarıqlı şəxslər çalışar. Daha çox şagirdin yüksək göstəricilərlə universitetə qəbul olması üçün bu tendensiya artırılmalıdır".

**Samirə Ərəblinski**

---

# Dostlarımız yanımızdadır

## Macarıstan da Qarabağın dirçəlməsinə səy göstərəcək



*"Səfərimin məqsədlərindən biri macar şirkətlərini Azərbaycanın işğaldan azad olunmuş ərazilərində fəaliyyətə cəlb etməkdir".*

Bunu mart ayının 10-da Xarici işlər naziri Ceyhun Bayramovla görüşdən sonra Macarıstan Xarici işlər və ticarət naziri Peter Siyarto bildirib.

"İnanırıq ki, regionda sülh və inkişaf bərqərar olacaq. Məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdır. Macarıstan hökuməti macar şirkətlərinin Dağlıq Qarabağ regionunda fəaliyyətini dəstəkləyir və bunun üçün də maliyyə ayırıb", - deyə nazir vurğulayıb.

Qeyd edək ki, Macarıstan xarici işlər və ticarət naziri bildirib ki, Qarabağın bərpası üçün şirkətlərinə 100 milyon dollar ayrılıb və bu şirkətlərə yenə də vəsait ayrılması nəzərdə tutulur.

**Mövzu ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Kazım Məmmədov bildirdi ki, Avropa ölkəsi olan Macarıstanın bizimlə sıx əməkdaşlığı ölkənin iqtisadi inkişafına mütləq öz töhfəsini verəcək:** "Qarabağın bərpası üçün bir çox dövlət Azərbaycanla əməkdaşlığa başlayıb. Bu işdə qardaş ölkə Türkiyə bizə həddən çox yardım edir. Bundan əlavə İran, İtaliya və s. ölkələr də Qarabağın dirçəldilməsi üçün səy göstərir.

Macarıstanın bir Avropa ölkəsi kimi bizimlə sıx əməkdaşlıq etməsi bizim üçün əlverişlidir. Həm də onlar lap əvvəldən Azərbaycanın Qarabağla bağlı mövqeyini sona qədər dəstəkləyib, bu gündən sonra da açıq şəkildə bizim mövqeyimizdən çıxış etməyi planlaşdırırlar.

Həmçinin, Cənub Qaz Dəhlizi Macarıstan üçün böyük önəm kəsb edir. Yəni bu, qarşılıqlı iqtisadi əlaqələrdir və hər iki ölkə öz iqtisadiyyatını inkişaf etdirmək üçün uğurlu əməkdaşlıq edirlər.

**Ağarza Elçinoğlu**

---

# Bütün daş karxanaları yoxlanmalıdır

## Çünki buradan vərəm, ağciyər xəstəlikləri də yayılır



Hər il tikintidə çoxsaylı qəzalar baş verir. Martın 6-da saat 11 radələrində Qaradağ rayonu, Qızıldaş qəsəbəsi ərazisində yerləşən daş karxanasında qəza baş verib. Rayon prokurorluğuna işçinin ölməsi ilə bağlı məlumat daxil olub.

Gülbaxt əhəng-daş yatağında yerləşən "Gülbaxt TMK" MMC-yə məxsus daş karxanasında daş yatağının açılması məqsədilə torpaq qatının ekskavatorla təmizlənməsi zamanı daş parçası hündürlükdən yuvarlanıb. Nəticədə yaxınlıqda yerləşən digər daş karxanasının işçisi, 1978-ci il təvəllüdlü Hüseynov Arzi Bəhramxan oğlunun üzərinə düşüb və sonuncu hadisə yerində ölüb.

Bir neçə gün öncə daş karxanası işçisinin başına gələn hadisə tikintidə təhlükəsizlik məsələsini yenidən gündəmə gətirir. Ekspertlər səbəbi sahibkarların təhlükəsizlik qaydalarına riayət etməməkdə görür.

Məsələ ilə bağlı "Şərq"ə danışan hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirib ki, tikinti sahələrində baş verən qəzaların birinci səbəbi işə götürənlə bağlıdır. Çünki Nazirlər Kabinetinin, Azərbaycan Əmək Məcəlləsinin müvafiq maddələri var. Onun sözlərinə görə, orada işçi üçün sağlam, təhlükəsiz şərait yaradılmalı olduğu birmənalı şəkildə qeyd edilib: "Bəzən qəzanı işçinin üzərinə qoymağa çalışırlar, içkili olduğunu bildirirlər.

Azərbaycan Əmək Məcəlləsinin iki maddəsi var: 15 və 309-cu maddə. 15-ci maddə də yazılıb ki, bütün idarə müəssisələri Azərbaycanın Əmək Qanunvericiliyinə icrasına dövlət nəzarətini Dövlət Əmək Müfəttişliyi həyata keçirir. 309-cu maddədə qeyd edilən İctimai Nəzarətin Cəmiyyət Təşkilatı da "ölü qurumdur". Bu iki qurum işçilərin sağlam şəraitdə işləməsinə nəzarət etməlidir".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Dövlət Əmək Müfəttişliyinin vaxtaşırı iş yerlərinin vəziyyətinin yoxlanılmalı olduğunu diqqətə çatdırıb:** "Daş karxanası uzaqda - Qaradağda yerləşir. Canları çıxıb karxananın içərisinə baxan olmayacaq. Yoxlasınlar ki, daş karxanasında nə vaxt təhlükəsiz şərait yaradılıb?

Bizim korpus yerləşən həyətin ətrafında tikinti işləri gedirdi. Daşların yonulması ilə məşğul idilər. Evlərin içi toz-duman olmuşdu. İşçilərin ağzında isə virusa qarşı istifadə etdiyimiz maskalar var idi. Birinin respiratorla işlədiyini görməzsən. Daş karxanasına da nəzarət edilməlidir, çünki vərəm, həmçinin ağciyər xəstəlikləri də yayılmış ola bilər. Hər şeyin kökündə işə götürənin məsuliyyətsizliyi, ictimai və dövlət nəzarətinin olmaması dayanır. Ümumiyyətlə, istər tikinti yerlərində, istərsə də karxanalarda monitorinq aparan yoxdur.

2020-ci ilin hesabatında Nazirlər Kabinetinin qərarlarında, Əmək Məcəlləsinin müvafiq qərarlarının pozulması, ölüm hadisələri var idi. Mən hər dəfə bu barədə yazıram".

*M.Qəhrəmanlı sonda məsələnin həlli üçün təklif edib və bildirib ki, bütün bunların qarşısını almaq üçün ölkədə Əmək Nazirliyi yaradılmalıdır:* "Dövlət Əmək Müfəttişliyi Sosial Müdafiə Nazirliyinin yanından götürülməlidir, əlahiddə güclü Əmək Nazirliyi yaradılmalıdır. Həmçinin Azərbaycanda Həmkarlar Təşkilatı da olmalıdır. 27 il əvvəl seçilən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev oradan durmur, "yapışıb qalıb".

Tikintidə o qədər ölüm hadisələri baş verib, lakin gizlədilib. Ən böyük, çətin problemlər əmək və sosial-iqtisadi sahələrdədir".

**Aygün Tahirqızı**

# Daha təkmil qanun hazırlanmalıdır

## *Sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılmır*

Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2022-ci il yanvarın 1-dək dayandırılır. Bununla bağlı "Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması haqqında" qanuna dəyişiklik Milli Məclisin iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılıb. Layihə səsə qoyularaq qəbul edilib. Xatırladaq ki, bundan əvvəl müddət 2021-ci il yanvarın 1-dək müəyyən edilmişdi.



### *Sahibkarlıq üçün "yaşıl" mühit yaradılmalıdır, iqtisadi inkişaf niyyəti bunu tələb edir*

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Eldəniz Əmirov vurğulayıb ki, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında qanun qəbul edilərkən məqsəd olaraq sahibkarlığın inkişafının stimullaşdırılması olduğu bildirilirdi:** "Lakin bu qanun qəbul olunduğu tarixi şəraitə baxsaq görərik ki, bu Azərbaycanda baş vermiş devalvasiyadan sonra ciddi zərbə almış sahibkarlıq fəaliyyətini ayaqda saxlamaq üçün dövlətin bir sıra tədbirlər silsiləsindən ibarət idi. 2015-ci ilin oktyabrında qəbul edilmiş bu qanunun 2021-ci il yanvarın 1-dək dayandırılması nəzərdə tutulurdu. Həmin tarix artıq geridə qalsa da bu qanunun şamil edilmə müddəti 2022-ci il yanvarın 1-dək uzadıldı. Əslində bu, gözlənilən idi. Çünki hazırda buna çox ehtiyac var".

*E.Əmirov hesab edir ki, hələ növbəti illərdə də bu uzadılmaları bir neçə dəfə təkrar müşahidə edəcəyik:* "Sual oluna bilər niyə? Əvvəla ona görə ki, onsuz da bu qanun sahibkarları yoxlamalardan tam azad etmir. Qanunun 2.1-ci maddəsinə görə isə vergi və maliyyə yoxlamaları, gömrük auditi, özəl tibb fəaliyyəti üzrə yoxlamalar, qida təhlükəsizliyi ilə bağlı yoxlamalar, yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti və digər 15-ə yaxın müxtəlif istiqamətlərdə yoxlamalar aparıla bilər. Göründüyü kimi, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında qəbul edilən qanunun özündə belə kifayət qədər yoxlamaların aparılmasına icazə verilir. Deməli ki, onsuz da yetərincə yenə də yoxlama istiqamətləri saxlanılıb. Başa düşürəm, elə sahələr var ki, ona nəzarət və yoxlama vacibdir. Amma bunu ən mümkün minimum səviyyədə saxlamaq lazımdır. İndi təsəvvür edək ki, yoxlanışa qadağa qoyan qanun belə 15-dən çox istiqamət üzrə yoxlamaya icazə verirsə, bu qanun qüvvədən düşəcəyi təqdirdə yoxlama halları nə qədər artacaq. Buna görə də 2022-ci ildə bu qanunun şamil edilmə tarixi bitdikdən sonra bu sahədə daha təkmil bir qanun layihəsi hazırlanmalıdır. Elə bir qanun layihəsi ki, orada öncə insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallara qarşı ciddi mübarizə, bundan kənar hallarda isə sahibkarlıq subyektlərinin inkişafı üçün geniş meydanın yaradılması təmin edilsin".

**Ekspert düşünür ki, gələn il olmasa belə, zaman keçdikcə biz daha effektiv qanunların və tədbirlərin şahidi olacağıq:** "Çünki iqtisadi inkişaf arzusu bunu tələb edir. Əgər qeyri-neft sektorunun inkişafını prioritet olaraq seçiriksə, sahibkarlıq üçün "yaşıl" mühit yaradılmalı və o mühitə xələl gətirən istənilən maneə aradan qaldırılmalıdır".

**Aynurə Pənahqızı**

# Benzin bahalaşmasaydı belə olmazdı

## Süni qiymət artımını yaradan əslində Tarif Şurasıdır

Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) daşıyıcı şirkət rəhbərlərinə və ictimai nəqliyyatı idarə edən sürücülərə xəbərdarlıq edib.



Xəbərdarlıqda bildirilir ki, ictimai nəqliyyatda süni qiymət artımına yol verildiyi halda daşıyıcı şirkətlərə qarşı Xidmət tərəfindən sərt tədbirlər görüləcək. O cümlədən, qeyd olunub ki, vətəndaşlar paytaxt istisna olmaqla respublikanın digər rayonlarında şəhərdaxili, rayondaxili və Bakı-Sumqayıt istiqamətində hərəkət edən avtobuslarda süni qiymət artımı ilə qarşılaşdıqları zaman 012-566-52-58 nömrəli "Çağrı Mərkəzi" ilə əlaqə saxlaya bilərlər.

**İqtisadçı-ekspert Nazim Bəydəmirli "Şərq"ə süni qiymət artımından danışıb. O bildirib ki, qiymətlərə görə təkcə sahibkarları qınamaq doğru olmaz:** "Bir iqtisadçı olaraq onu deyim ki, süni qiymət artımı bazar iqtisadiyyatında olmayıb. Süni qiymət artımı dedikdə dövlət qurumları və digər orqanlar adətən sahibkarları günahlandırırlar. Sahibkar isə mövcud iqtisadi vəziyyətə uyğun olaraq xərcləri hesablayır və tarif müəyyən edir. Ancaq qiymətləri Tarif Şurası müəyyən etdiyi sahələrdə belə halların baş verməsi özbaşınalıq, tarifdən yayınma deməkdir. Buna görə də inzibati xətalar məcəlləsinə uyğun olaraq həmin şəxslər cəzalandırılmalıdır. Bu isə məsələnin bir tərəfidir. Əslində isə bunlara səbəb olan məsələlər aradan qaldırılmalıdır. Süni qiymət artımını yaradan əslində Tarif Şurasıdır. Sərnişindaşımada qiymətlərin qalxması ona görədir ki, benzinin də qiyməti yüksəlib. Bu və digər səbəblərə görə sahibkarları da qınamaq düzgün deyil".

**Aytac Ali**

# Mingəçevirdə evlərin qiymətinin baha olması təəccüblü deyil

## Çünki bu şəhərdə yaşamaq üçün hər cür şərait var



Mingəçevirdə evlərin qiyməti həddən artıq dərəcədə yüksəlib. Sakinlərin dediyinə görə, 1-2 otaqlı evlər 38-40 minə təklif edilir. Lakin ipoteka ilə ev almağa cəhd edən vətəndaşların maaşları buna çatmır. Mingəçevirdə rieltor xidmətində çalışanlar da qiymətlərin artdığını, hətta fantastik həddə çatdığını təsdiqləyib.

**AVCİYA-nın Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı Mingəçevirdə evlərin qiymətinin artmasına münasibət bildirərkən qeyd edib ki, bəzi səbəblərə görə buradakı evlərin qiymətinin yüksək olması təəccüblü deyil:** "Mingəçevir ölkəmizin ən gözəl şəhərlərindəndir. Bu şəhər strateji cəhətdən də olduqca əhəmiyyətli ərazidə yerləşir. Fikir verin, Bakı-Tiflis dəmir yolu, eyni zamanda Bakı-Tiflis magistral yolu buradan keçir. Su anbarı, su elektrik stansiyası da Mingəçevirdə mövcuddur. Havası isə daima günəşlidir. Bu şəhərdə yaşamaq üçün hər cür şərait var. Həmçinin bu ərazi Qarabağa da yaxındır. Burada yaşayıb Qarabağın istənilən bölgəsinə asanlıqla getmək mümkündür. Fikirləşirəm ki, sadalanan səbəblərə görə evlərin qiymətindəki artım normaldır. Başqa bir səbəb isə Mingəçevir şəhərində sənayenin, bir çox sahələrin inkişaf etməsidir. Belə olan halda isə bu əraziyə əhali axını baş verəcək. İnsanlar Mingəçevirə işləmək üçün üz tutacaqlar. Ona görə də evlərin qiymətindəki yüksəlmə təəccüblü deyil".

**Aytac Ali**

# Bəzən valideyn övladını yaxşı tanımır

## Özünəqəsd geri dönüşü olmayan hadisədir



Son günlər intihar hadisəsi ilə çox rastlaşırıq. Bu dəfə situasiya bir qədər fərqli olub. Martın 9-u günorta saatlarında Abşeron rayon Qobu qəsəbəsi 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdləri 2005-ci il təvəllüdlü Quliyeva Mətanət Elşən qızı və 2004-cü il təvəllüdlü Səmədova Əfruz Rafiq qızı Lökbatan qəsəbəsində yerləşən 9 mərtəbəli binanın damından özlərini ataraq intihar ediblər.

Birgə intihar etdikləri deyilən iki şagirddən biri - Əfruz Səmədovanın ailəsi onun özünü öldürmədiyini iddia edir. Rəssamlıqla məşğul olan Əfruzun babası qısa söhbət zamanı qeyd edib ki, nəvəsi heç də intihara meyilli olmayıb və bu addımı atmayıb. Babanın sözlərinə görə, sinif yoldaşı Mətanət yıxılarkən Əfruz onu tutmağa çalışıb. Bu zaman Mətanətin ağırlığından nəvəsi də onun arxasınca yıxılıb.

Mərhum Mətanət Quliyevanın atası Elşən Quliyevin sözlərinə görə, qızlar selfi çəkdiririmiş: "Onlar şəkil üçün ora çıxıblar. Biri sürüşüb, digəri də onu tutmaq istəyib. İkisi də yıxılıb. İntiharla bağlı heç bir dəlil yoxdur".

E.Quliyev bildirib ki, üç övladı var. M.Quliyeva onun üçüncü övladı olub.

Hazırda istintaq davam edir. Araşdırmalar nəticəsində əsas səbəb bəlli olacaq. Lakin şagirdlərin niyə bu cür addım atdığı sual doğurur. Bəziləri problemi karantin dövrünün yaratdığı ünsiyyətsizliklə əlaqələndirir. Məlumdur ki, tədris 1 ildir bağlıdır, hazırda qismən bərpa işləri gedir. Şagirdlər də mövcud vəziyyətə görə qarşılıqlı ünsiyyətdən kənar qalıb.

**Mövzu ilə bağlı "Şərq"ə danışan Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov dünən baş verən hadisəni faciə adlandırıb:** "Məsələyə birmənalı qiymət vermək çətindir. Hadisə ilə bağlı istintaq tədbirləri keçirilir. Araşdırmalardan sonra hadisənin səbəbi müəyyən olacaq. Belə bir fikir var ki, şagirdlərdən biri digərini xilas etməyə çalışdığı üçün ikisi də həyatını dəyişib. Ümumiyyətlə, müxtəlif yanaşmalar var. Dünənə qədər prioritet olan məqamlar var idi. İnsanın başının üstündə damı, yeməyə çörəyi varsa, onun intihar etməsi üçün nə problemi var? Söhbət insanın hisslərindən, duyğularından gedir. Bu, gözlə görünən hal deyil. İnsan o hissi daxilində çəkir. Hər kəsə də müxtəlif cür təsir göstərir.

E.Rüstəmov duruma həssas yanaşmaq lazım olduğunu bildirib: "Yeniyetmənin ya özü, ya ailəsi ilə bağlı problemi olub və yaxud da başqa bir səbəbdən irəli gəlib. Bu gün intihar xəbərləri sosial şəbəkələrdə tirajlanır, həmin xəbərlər də insanların psixologiyasına təsir edir. İnkişaf etmiş ölkələrdə bu cür xəbərlərin geniş yayılmasına imkan vermirlər. Belə olan təqdirdə ətrafda olan adamlara intihar çıxış yolu kimi görünür. Nəzərə almaq lazımdır ki, özünəqəsd geri dönüşü olmayan hadisədir".

*Psixoloq valideynləri diqqətli olmağa çağırıb:* "Etiraf etmək lazımdır ki, bəzən valideyn övladını yaxşı tanımır. Onu vizual olaraq görür, hansı narahatlığı olduğu ilə əlaqədar məlumatsız qalır. Artıq bir ildir, məktəblər onlayn rejimdədir, ünsiyyət azalıb. İndi isə qismən tədris bərpa olunub. Belə hal da duruma təsir göstərə bilər".

**Aygün Tahirqızı**

# Hər kəs ona acıyırdı...

*13 nəfərin qatili kimi ortaya çıxdı*

*(əvvəli səh. 16)*


Sayfa 3 HABERLER
Çumra canavarının kurbanlarını gömdüğü evdekiler hasta oldu
Katil Aksoy saralı olduğu için çıkarılan cesetler konusunda kendisine sual sorulamıyor...



Bəlkə də bu laqeydlik onun gələcək illərdə başına gələcəklərinin tək səbəbi idi. Bu durum ətrafdakıların təbii ki, diqqətini çəkirdi. Amma verilən suallara tərs cavab verdiyinə görə heç kim ona bir daha sual verməyə cürət etmirdi. Abdullah Aksoy iki dəfə ailə həyatı qurur.

Lakin bu evliliklər uzun sürmür. Hər iki həyat yoldaşının onun epilepsiya səbəbindən tərk etdiyini zənn edirdi. Lakin belə deyildi. Abdullah Aksoy əslində homoseksual idi və elə bu səbəbdən evlilikləri davam etmirdi. Bundan əlavə atası onun homoseksual olduğunu biləndə evdən qovmuşdu. Bu isə onda dərin psixoloji yara buraxmışdı.

Bir gün Muharrem Özkaya adlı bir şəxsin Çumraya dost ziyarətinə getdiyi və bir neçə gün keçməsinə baxmayaraq evə qayıtmadığı məlum olur. Bunun üzərinə ailəsi onun itkin düşdüyü barədə polisə məlumat verir. Muharrem Özkayanın yanında son olaraq Abdullah Aksoyun göründüyü bildirilir. Polis bölməsinə çağırılan Aksoyun davranışları şübhə doğurur. Əvvəlcə o, həmin adamı tanımadığını, sonra görüşdüyünü, birlikdə evə getdiklərini deyir. O, polisə qapıda epilepsiya olduğunu və özünə gələndə isə həmin adamın orada olmadığını iddia edir. Bu ifadədən sonra polis araşdırma aparmaq üçün Abdullah Aksoyun evinə gedir. Evdəki qəribəlik dərhal polislərin diqqətini cəlb edir. Yataqda qan izlərini, yerdə çarşafa bükülmüş kəsikləri, itkin kişinin saatını görən polislər həyəcanlanırlar. Dərhal qazıntı işləri aparılır. Qazıntı yerində itkin kişinin cəsədi yarım çılpaq və başı aşağı, əlləri və ayaqları isə iplə bağlanmış halda aşkarlanır. Başında geniş və dərin yarıqların olduğu müəyyənləşir. Boğazındakı izlərdən isə yaralıykən boğularaq öldürüldüyü təsdiqlənir. Evindən cəsəd çıxan Abdullah Aksoy sadəcə "heç kimi öldürmədim, vallah" deməklə kifayətlənir. Bundan sonra nəzarətə alınan Abdullah Aksoy törətdiyi cinayəti etiraf edib: "Ona mərhəmət edib evimə apardım. Mən passiv homoseksualam. Aramızda mübahisə düşdü. Şeytana uyub onu öldürdüm".

Bu hadisədən sonra polislər Çumradakı itkinlərin Abdullah Aksoyla əlaqəli ola biləcəyini düşünür və geniş tədqiqata başlayırlar. Araşdırmalar nəticəsində Abdullah Aksoyun bir çox qətldə iştirak etdiyi məlum olur. O etiraf edir ki, öldürdüyü insanları əvvəlcə kömək bəhanəsi ilə evinə çağırırmış və təcavüz edirmiş. Daha sonra isə öldürürmüş. Hətta bir dəfə eyni inşaatda çalışdığı bir dostunu eyni üsulla aldadıb. Onu öldürdüyünü düşünsə də kişi qaçmağı bacarır. Bu hadisədən sonra Abdullah Aksoy dostunun ona guya təcavüz etdiyini və pulunu oğurladığını iddia edərək kişini məhkəməyə vermişdi. Məhkəmə Aksoyu bu məsələdə haqlı çıxarmış və adam iki ay həbs cəzasına məhkum edilmişdi. Araşdırmalar nəticəsində Abdullah Aksoyun Çatalhöyükdə işləməyə gələn iki alman arxeoloqu və üç texniki işçi də daxil olmaqla 13 nəfəri öldürdüyü müəyyənləşir. 1962-1967-ci illər arasında törətdiyi bu cinayətlərdən sonra o, ölüm cəzasına məhkum edilir. Özü də daxil olmaqla bir çox insan törətdiyi cinayətlərə görə ona ölüm hökmünün çıxarılacağını proqnozlaşdırırdı. Ancaq məhkəməyə getməzdən bir həftə əvvəl belindəki kəmərlə su borusunda özünü asaraq intihar edir. Onun cənazəsinə heç kim sahib çıxmır. "Nə ölüsü, nə də dirisi" deyərək atası oğlunun cəsədini belə götürmür. Cənazə namazında imamın arxasında isə yalnız iki nəfər durur: qəbiristanlıq keşikçisi və cənazə maşınının sürücüsü.

**Aynurə Pənahqızı**



# Aldanıb, pərişan oldu

*Çiçək satan qadının qızı Oksfordda oxumayıb*

15 ildir Hataydakı qəbiristanlıqda çiçək sataraq pul qazanan 2 uşaq anası Gülseren Bozkurtun Oksford Universitetində oxuduğunu düşündüyümüz qızının orada təhsil almadığı ortaya çıxıb.

"Şərq" türk mətbuatına istinadən bildirir ki, anası qızının İstanbulda əmlakçı olduğunu öyrənib. 10 ildir hər gün gəlib gül satan qadın dünən gül satdığı yerə getməyib.

Antakya rayonundakı Asri Qəbiristanlığının ən qədim çiçəkçilərindən biri olan Gülseren Bozkurt yaz, qış demədən məzarları ziyarət edənlərə çiçək satır.

Bozkurt oğlunun burada qazandığı pulla təhsil aldığını və qızının 5 ildir İngiltərədəki Oksford Universiteti Tibb Fakültəsində oxuduğunu deyib.

Bəzi vətəndaşlar və xeyriyyəçilər Merve Bozkurta təqaüd vermək istəyib. Ancaq gənc qızın Oksford Universitetində oxumadığı məlum olub. Gənc qızın uzun müddətdir ki, İstanbulda yaşadığı və heç vaxt xaricə getmədiyi aşkar edilib.

Hadisə üzə çıxan kimi gənc qız sosial media hesablarını bağlayıb. Həqiqəti ailəsinə söyləmək məcburiyyətində qalıb: "Anamı əsəbiləşdirdiyim üçün özümü çox pis hiss edirəm. Bir hekayə uydurdum. Hər kəsi bu hekayəyə inandırdım, o cümlədən özümü. Ancaq İstanbulda bir əmlak ofisində çalışıram".

**Aygün Tahirqızı**



# Bir kilometrlik körpünün yeri dəyişdirilib

Bu günlərdə Almaniyanın Şimali Reyn-Vestfaliya federal torpağında bir kilometr uzunluğunda körpünün yeri xüsusi quraşdırılmış mühəndis qurğusunun köməyi ilə dəyişdirilib.

AZƏRTAC xəbər verir ki, bu nadir əməliyyat ilbiz süræti ilə hərəkət edən superağır nəqliyyat vasitəsilə həyata keçirilib. Hagen şəhəri yaxınlığında yerləşən 45-ci federal magistral yolundakı Lennetal körpüsü nəhəng xizək üzərində təxminən 20 metr məsafəyə sürüşdürülüb. 30 min ton çəkisi olan körpü Eyfel qülləsindən üç dəfə ağırdır.

Vestfaliya avtobanlar idarəsinin məlumatına görə, nəhəng körpü qeyri-adi super ağır yük teflon plitələrində xüsusi sürtkü ilə gün ərzində bir neçə santimetr sürüşdürülərək yeni yerinə köçürülüb.

# 4 il çəkdi...

*İki şimpanze qəbiləsi arasında müharibəni eşitmişdinizmi?*





*(əvvəli səh. 16)*

Belə ki, altı Kasakeladan olan meymun dəstəsi ağacın üstündə meyvə yeyən Kahama qəbiləsindən olan Qodi adlı gənc bir meymunu mühasirəyə alır. Onlar onu ağacdan yıxaraq yerə sürükləyirlər. Qodini qollarından və ayaqlarından tutaraq döyüb və dişləyirlər. Hətta bir neçə dəfə böyük bir qayaya çırpırlar. Qodi bitəhər onlardan canını qurtarır və sürünərək oradan uzaqlaşır. Bundan sonra o bir daha görünmür. Ehtimal ki, o, döyülmədən sonra ölür. Daha sonra iki qəbilə arasında yerləşən Kalande qrupu və Kasakela arasında sərhəd toqquşmaları baş verir. Kalande qrupu ondan üstün olan Kasakela qəbiləsinə təslim olur. Bundan sonra həmin torpaqlar Kasakela və Kahama qəbiləsinin müharibə meydanına çevrilir. Bu taktikalardan istifadə edərək Kasakela sakinləri növbəti dörd il ərzində sistematik olaraq Kahama kişilərini bir-bir axtarıb pusquya salıb öldürürlər. Hətta Kahama qəbiləsindən olan Passion adlı ana meymun qorxunc bir şəkildə, bəlkə də stres səbəbindən uşaqlarını öldürməyə və öz əsgərlərini yeməyə başlayır. 1977-ci ildə Kahama kişilərinin sonuncu iki nümayəndəsi Çarli və Sniff öldürülür. Birliyin kişiləri tamamilə bitdikdən sonra Kasakela basqınçıları qadınlara üz tuturlar. Onlar zorla Kasakela torpağına sürgün edilirlər və bütün körpələri məhv edilir. 1978-ci ildə Kahama bölməsi artıq mövcud olmur. Demək olar ki, tamamilə və sistematik şəkildə silinir.

Mütəxəssislər bu hadisənin iki əsas səbəbi olduğunu güman edirlər. Onlar hesab edir ki, bu, sadəcə sosial qarşıdurma və regional gücə sahib olmaq uğrunda mübarizə idi.

**Aynurə Pənahqızı**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Psixologiya və Para psixologiya** (3-12 ay)

**Tel: (012) 566-88-96**

**(012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 477



## Sumqayıtda 99 yaşlı qadın peyvənd olunub

Sumqayıtda 99 yaşlı Qubadlı sakini peyvənd olunub.

Sumqayıtda yaşayan Qubadlı rayonu, Padar kənd sakini 99 yaşlı Hamayıl Muxtar qızı Hüseynəliyevaya COVID-19 virusu əleyhinə peyvənd vurulub. (apa)

*Peyvənd Sumqayıt həkimləri tərəfindən H.Hüseynəliyevanın yaşadığı evdə həyata keçirilib. O, hazırda özünü yaxşı hiss edir.*

## Dünya rekordu qırıldı

*Buzun içində 2,5 saat qaldı*



Avstriyalı İozef Keberl buzla dolu kabinədə 2,5 saat qalmaqla dünya rekordunu yeniləди.

Bu insan bədəninin buzla ən uzun müddətli təmasıdır və çox insanlar üçün ölümcül ola bilər.

Ekstremalçının sözlərinə görə, bu hərəkəti ilə cəmiyyətin diqqətini qlobal istiləşmə və buzlaqların əriməsinə cəlb etmək istəyib.(/medicina.az)

2019-cu ildə o buzun içində 2 saat 8 dəqiqə qala bilmişdi.

## 20 yaşlı qadını öldürüb balkondan atdılar

Cüneyt Ağyol cinayəti etiraf edib



Türkiyənin Antalya şəhərində 4 ay əvvəl itkin düşən 1 uşaq anası Mərvənur Poladın (20 yaş) qətl edildiyi ortaya çıxıb.

Qorxunc cinayət "ATV"də yayımlanan "Müge Anlı ilə Tatlı Sərt" verilişində gündəmə gəlib.

"Şərq" xəbər verir ki, qatil olduğu düşünülən Cüneyt Ağyol cinayəti etiraf edib. Qadını iplə boğaraq öldürdüyünü söyləyib. Canlı yayımda Mərvənin cəsədinin balkondan atıldığı məlum olub. C.Ağyolun meyidi "kurye"yə verdiyi *(adı verilişdə çəkilmir - red),* onun da cəsədi ayaqlarının arasında xalça kimi daşıdığı öyrənilib.

Mərvənurun bacısı isə cəsəd pis vəziyyətdə olduğu üçün onun tabutla birgə basdırıldığını deyib: "Bizim ürəyimizi yandırdılar. Onların da ən ağır şəkildə cəzalandırılmalarını istəyirik. Bu canilər edam edilsin".

**Samirə**

## Ev heyvanlarını vəhşiliklə öldürən qadın tutuldu



Heyvanlara işgəncə videosunu satan əxlaqsız qadın həbs edilib.

Milli.Az haberler-ə istinadla bildirir ki, heyvanları işgəncə ilə öldürərkən çılpaq halda özünü videoya çəkən Christina adlı qadın 5 il müddətinə azadlıqdan məhrum olunub.

Məlum olub ki, qadın bu tip videoları satmaqla 3800 fund-sterlinq qazanıb. Onun dediyinə görə, bu tipli videoları xoşlayan şəxslər üçün yaradılan qrupda görüntüləri pulla satıb.

*Qeyd edək ki, o, ancaq ev heyvanlarına işgəncə verib.*




# Hər kəs ona acıyırdı...

*13 nəfərin qatili kimi ortaya çıxdı*

"Cumra Canavarı" kimi məşhurlaşan və işlədiyi cinayətlərə görə 1960-ci illərə damğa vuran Abdullah Aksoy hər kəsin acıdığı qatı cinayətkardır.


Sayfa 3 HABERLER

Çumra canavarının kurbanlarını gömdüğü evdekiler hasta oldu

Katil Aksoy saralı olduğu için çıkarılan cesetler konusunda kendisine sual sorulamıyor...

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Abdullah Aksoy Konyada sadəcə bir əkinçi olub. Ancaq 15 yaşında bir qəzadan sonra epilepsiya xəstəliyinə tutulub. Bu qəzadan sonra hamı ona rəhm etməyə və kömək etməyə başlayıb. Müxtəlif inşaat işlərində çalışıb. Tez-tez getdiyi bir kafedə tək oturar, heç kimlə dostluq etməzmiş. Yalnız yaşlı kişilərlə söhbət edərdi. Abdullah Aksoyun daha üç qardaşı olub. Onlardan ikisi Almaniyaya işçi olaraq getmiş, biri isə Konyada sürücü işləyirmiş. Ana və atası heç vaxt Abdullanı axtarmırdılar və onunla maraqlanmırdılar.

**Aynurə**

*(ardı səh. 15)*

# 4 il çəkdi...

*İki şimpanze qəbiləsi arasında müharibəni eşitmişdinizmi?*







Müharibələrin həmişə insanlar arasında olacağına dair bir qayda yoxdur. Bəzən heyvanlar arasında da zaman-zaman belə müharibələrə rast gəlmək mümkündür.

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, belə bir hadisə 1974-1978-ci illərdə Tanzaniyada baş verib. Belə ki, 1974-cü ildə Kahama və Kasakela adlı iki şimpanze qəbiləsi arasında müharibə başlayıb. Maraqlısı budur ki, bu müharibə düz 4 il davam edib. 4 illik müharibənin məqsədi Kasakela qəbiləsinin Kahama qrupunun torpaqlarını işğal edərək qida ehtiyatlarını ələ keçirmək olub. Həmin müharibə ilk dəfə Kasakela qrupundan olan 6 şimpanze tərəfindən başladılıb.

**Aynurə**

*(ardı səh. 15)*



## Hollivud ulduzunun ayağı sınıb

Bruk Şelds video çəkəndə ayağı sınıb. Uşaqlıqdan ekranlarda olan məşhur Hollivud ulduzu Bruk Şelds evində bəxtsiz hadisə ilə üzləşib.

Sosial şəbəkə hesabındakı izləyicilər üçün evində video çəkən zaman aktrisa anidən yıxılıb. Nəticədə isə sağ ayağının bud sümüyü sınıb. 55 yaşındakı Şelds bir müddət xəstəxanada müalicə olunduqdan sonra evə buraxılıb. Küçədə əl dəyənəkləri ilə hərəkət edən zaman kameralara yaxalanan məşhur aktrisa suallara gülümsəyərək cavab verib.

**Aytac**